www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 dekabr 2015-ci il Cümə axşamı № 269 (6297) Qiymәti 40 qəpik

**Xəbər**

**Kənd Təsərrüfatı Nazirliyinin ilginc rüşvət siyahısı "Yeni Müsavat"da**

yazısı səh.12-də

**Gündəm**

**Türkiyə baş naziri Bakıya mühüm mesajlarla gəlir**



Bu gün Əhməd Davudoğlunun Azərbaycana kritik səfəri başlayır; ziyarət mürəkkəb bir dönəmə təsadüf edir və Bakı-Moskva münasibətlərinə də təsirsiz ötüşməyə bilər; gözlər Bakıda...

yazısı səh.8-də

**Nardaranda əməliyyat zamanı 22 nəfər saxlanılıb**

yazısı səh.9-da

**Facebookda siyasi dava və müzakirələr azalıb**

yazısı səh.3-də

**Rusiya Qarabağda müharibəni alovlandırmaq üçün bəhanə axtarır**

yazısı səh.11-də

**Avropa Birliyindən Türkiyəyə yunan Kipri tələsi?!**

yazısı səh.7-də

**Rauf Mirqədirovun məhkəməsində şahidlər dindirildi**

yazısı səh.3-də

**Türkiyədən Azərbaycana gələn mallar ucuzlaşacaq**

yazısı səh.10-da

**Gənc oğlanın üzünə sirkə turşusu tökənlər tutuldu**

yazısı səh.14-də

**İcra başçısı jurnalisti 2000 manat cərimələtdi**

yazısı səh.2-də

**Abid Şərifovla bağlı xəbər gizlədilir**

yazısı səh.10-da

**Paytaxtda vergi müfəttişi döyüldü**

yazısı səh.14-də

**Yollarda gizli patrullar xidmət aparacaq**

yazısı səh.2-də

**Güclü külək əsəcək, qar yağacaq**

yazısı səh.14-də

## Milli Şura istintaqa cəlb olunur, yeni həbslər gözlənilir

# NARDARAN VƏ SONRASI ... AZƏRBAYCANDA NƏLƏR OLACAQ

Hacı Tale Bağırzadə Nardaran kəndini qırğına və əməliyyatlara niyə meydan etdi; kəndə gizli gətirilən tərəfdarlar kimlər idi; Azərbaycan iqtidarı siyasi səhnədən yox, səhnə arxasından və öz daxilindən təhdid olunur...




yazısı səh.9-da

## General Çovdarov "sprutun başı" rolunda

MTN-in həbsdəki sabiq idarə rəisi həyatına təhlükə olacağından bərk narahatdır və bu səbəbdən kamerasını dəyişdirməyə və ya müalicə müəssisəsində izolyasiya olunmağa çalışır; onun tezliklə sensasion açıqlamalar verəcəyi gözlənilir...

yazısı səh.5-də



**Etibar Əliyevin 1 ayı - "Texnikabank"-da nə dəyişdi?**

yazısı səh.4-də



*Firudin Cəlilov:*

**"Prezidentə xəyanət edənlərdən biri də Naqif Həmzəyev olacaq"**

yazısı səh.6-da



**Nazirlik Razi Nurullayevin təşkilatını da AXCP kimi tanımadı**

yazısı səh.5-də

# Prezident Naxçıvana 7 milyon manat ayırdı



**Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün Prezidentin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 7 milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.



# Cenevrədə multikulturalizmə aid kitabın təqdimat mərasimi keçirilib

**1 dekabr 2015-ci ildə Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə İsveçrənin Silahlı Qüvvələrə Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzinin həyata keçirdiyi layihə çərçivəsində Cenevrədə "Azərbaycan və İsveçrədə multikulturalizm və dünyəvliyin ortaq dəyərləri" adlı kitabın təqdimat mərasimi olub.**

Toplantıda Şura üzvü Dilarə Vəliyeva, Şura Katibliyinin məsləhətçisi İlqar Dadaşov, Bakı Beynəlxalq Multikuluralizm Mərkəzinin icraçı direktoru Azad Məmmədov, Azərbaycan Respublikasının İsveçrədəki səfiri Əkrəm Zeynallı, İsveçrənin Azərbaycandakı keçmiş səfiri Alan Qidetti, İsveçrənin Gürcüstandakı keçmiş səfiri Lorenzo Amberg, digər diplomatlar, ekspertlər və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak edib.

İsveçrənin Silahlı Qüvvələrə Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzinin direktor müavini Daniyel Varner tədbir iştirakçılarına layihə haqqında ətraflı məlumat verib. Cənab Varner layihəni dəstəklədiyinə görə şuraya təşəkkürünü bildirib və qeyd edib ki, müxtəlif regionlarda yerləşən Azərbaycan və İsveçrə dövlətləri multikulturalizm və dünyəvliyin qorunub saxlanılması baxımından ortaq dəyərlərə malikdir.

Bakı Beynəlxalq Multikuluralizm Mərkəzinin icraçı direktoru Azad Məmmədov çıxış edərək ölkəmizdə müxtəlif dinlərə və etnoslara mənsub olan şəxslərin əsrlər boyu sülh şəhərində yaşadığını, multikulturalizmin qorunmasının dövlət siyasəti olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. A.Məmmədov konkret faktlarla Azərbaycanda milli və dini azlıqların hüquq və azadlıqlarının qorunması üçün dövlət səviyyəsində atılan addımlar, habelə multikulturalizmin hüquqi aspektləri haqqında ətraflı məlumat verib: "Son vaxtlar dünyada multikulturalizm ənənələrinin qorunmasına qarşı təhdidlərin artdığı bir vaxtda, Azərbaycanda müxtəlif xalqların birgəyaşayışı nümunəvi model kimi öyrənilə bilər".

Kitabın İsveçrəyə həsr olunan bölməsini Friburq Universitetinin (İsveçrə) əməkdaşı Nikolas Şmit təqdim edib. N. Şmit İsveçrədə multikulturalizm və dinlərarası münasibətlərin tarixi haqqında danışıb və bu məsələdə federalizm ənənələrinin rolunu xüsusi qeyd edib.

Avropa İttifaqının Cənubi Qafqaz məsələləri üzrə keçmiş xüsusi nümayəndəsi Filip Lefort həm Azərbaycanda, həm də İsveçrədə multikulturalizm və dünyəvliyin qorunub saxlanılmasını yüksək qiymətləndirib.

Təqdimat mərasimi iki ölkə arasında multikulturalizm dəyərlərinin təbliği sahəsində əməkdaşlığın perspektivlərinin müzakirəsi ilə davam etdirilib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# "Gizli patrullar Bakıda avtoxuliqanların sayını azaldacaq"

**Bir çox ölkələrdə xidmət aparan gizli patrullara artıq Azərbaycanda da rast gəlinəcək. Daxili İşlər Nazirliyi (DİN) Respublika Baş DövlətYol Polisi İdarəsinin (BDYPİ) İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev milli.az saytına açıqlamasında bildirib ki, artıq bizdə də qarışıq və gizli xidmətin tətbiqi ilə bağlı iş aparılır:**

"Bu məqsədlə yaxın vaxtlarda əlavə nəqliyyat vasitələri gətiriləcək. Yəni sürücülər bundan sonra yollarımızda xüsusi rəng qrafikası və üzərində yazısı olmayan patrul avtomobillərini görəndə təəccüblənməsinlər".



Yeni tətbiqin hansı fayda verəcəyi ilə bağlı musavat.com-a ekspert İlqar Hüseynli danışıb. O bildirib ki, əslində qeyri-rəsmi olsa da Bakıda gizli patrulların fəaliyyətinə rast gəlinirdi:

"Bakıda avtoxuliqanlar daha çox gecə saatlarında küçələrə çıxırlar. Onların yol hərəkəti qaydalarını pozması nəticəsində bir çox hallarda qəzalar baş verir. Gizli patrulların yaranması isə bu qəzaların qarşısını müəyyən qədər alacaq. Bu baxımdan hesab edirəm ki, Bakı küçələrinə bu kimi yeni qaydalarla nəzarətin edilməsi müsbət haldır. Eyni zamanda gecələr bir çox şəxslər toylardan, müxtəlif ziyafətlərdən içkili halda çıxaraq, sükan arxasında əyləşirlər. Hazırda bu gizli patrullarla bağlı ictimaiyyətə məlumatın yayılması özü belə müsbət haldır. Çünki artıq insanlar biləcəklər ki, yollarda bu kimi yeniliklər var. Ona görə də müəyyən mənada özlərinə nəzarət edəcəklər. Bu isə təbii ki, baş verə biləcək qəzaların qarşısını alacaq".



# Adil Qeybullanın anasının cümə axşamı mərasimi keçiriləcək

**Bu gün, dekabrın 3-də Bakıda professor Adil Qeybullanın anasının cümə axşamı mərasimi keçiriləcək. Mərasim saat 16:00-dan başlayaraq 7-ci mikrorayonda, Dairəvi küçədə - "Sənan" marketin arxasındakı həyətdə, "Mərasim evi"ndə təşkil olunacaq (Beynəlxalq Universitetin yanı).**

Allah rəhmət eləsin.

❑ **Musavat.com**



# "Suraxanı icra şöbəsi məhkəmənin qərarını icra etmir"

## YAP fəalı məhkəmə icraçısının ona dəyən ziyanı ödətdirmək istəmədiyini bildirir

**YAP-ın ilk qurucularından olan, hakim partiyanın fəalı, müharibə iştirakçısı Arif Rüstəmov ölkə başçısı İlham Əliyevə, ədliyyə naziri Fikrət Məmmədova müraciət edib. O, müraciətinin mətbuatda dərc edilməsini xahiş edib.**

A.Rüstəmov bildirir ki, 1 il öncə Ali Məhkəmə Pərvaz və Pərviz Rüstəmovların ona vurduğu maddi ziyanın ödənməsinə dair qərar verib: "Lakin Suraxanı Rayon İcra Şöbəsinin işçisi Bakir Həsənov məhkəmə qərarını icra etmək istəmir. Hər dəfə gedirəm, deyir ki, get, sabah gəl, pulu alıb verəcəm. O, ya qarşı tərəfdən pulu alıb mənə vermir, ya da qərəzli şəkildə məhkəmə qərarını icra etməkdə maraqlı deyil. Ona dəfələrlə müraciət etmişəm, Suraxanı Rayon İcra Şöbəsinin rəis müavini Elmir Tağıyevə də demişəm, lakin qərarı icra etmək istəmirlər. Mən həmçinin rəis Xanlar Zeynalova da telefon vasitəsilə problemi demişəm, onun da tapşırığına məhəl qoyulmur. Nəhayət, mən ölkə prezidenti cənab İlham Əliyevə və ədliyyə naziri Fikrət Məmmədova müraciət etmək məcburiyyətində qalmışam. Cənab prezidentdən, hörmətli Fikrət müəllimdən xahiş edirəm, mənimlə bağlı məhkəmə qərarının icra olunmasına köməklik göstərsinlər".

❑ **T.ƏHMƏDLİ**

# İcra başçısı jurnalisti 2000 manat cərimələtdi

**Cenubnews.com saytının baş redaktor əvəzi Mirələm Həşimova qarşı Masallı rayonunun icra başçısı Rafil Hüseynovun iddiası əsasında keçirilən məhkəmə iclası başa çatıb. Məhkəmə jurnalisti 2000 AZN məbləğində cərimə etmək barədə qərar çıxarıb.**



Mirələm Həşimov ona qarşı irəli sürülən ittihamları qəbul etmədiyini bildirib: "İttihamda göstərilir ki, guya adıçəkilən üç xəbərdə icra başçısı Rafil Hüseynovun şərəf və ləyaqətini alçaltmışam. Amma "Masallı park bulvarını sel apardı" başlığıyla yayımlanan məqalədə (xəbərdə) nəinki Rafil Hüseynov, heç bir şəxs təhqir olunmayıb və "icra başçısı" sözü keçməyib. "Masallıda ağacları kəsirlər" başlığı ilə yayımlanan xəbərdə isə qeyd etmişik ki, "Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq". Əgər ağacların rəhbərlik tərəfindən kəsilməsi yalan idisə, onlar təkzib olaraq bizə müraciət etməli idilər. Bu günə qədər 5 ay keçib, təkzib verilməyib. "Rafil Hüseynov: İşıq pulunu ödəyə bilmirsənsə, get özünü öldür" başlığı ilə yayımlanan xəbərdə isə biz muxalifet.az saytına istinad etmişik və eyni xəbər bir çox saytlarda da dərc olunub. Biz, KİV qanunlarına uyğun olaraq istinad etmişik və istinad olunan xəbərin məsuliyyəti ilk yayımlanan mənbədir. Gördüyünüz kimi, hər üç xəbərdə qeyri-qanuni iş görməmişik".

Jurnalist məhkəmənin qətnaməsini aldıqdan sonra apelyasiya şikayəti verəcəyini söyləyib.

❑ **NURLAN**

# Təhsildən yayınan şagirdlərin valideynləri cərimələnəcək

**Azərbaycanda təhsildən yayınan şagirdlər üçün cərimə tətbiq olunacaq. APA-nın xəbərinə görə, bununla bağlı İnzibat Xətalar Məcəlləsinə təklif olunan dəyişiklik layihəsi Milli Məclisin (MM) Hüquq siyasəti və dövlət quruculuğu və Dini qurumlar və ictimai birliklər komitələrinin birgə iclasında müzakirəyə çıxarılıb.**

Məcəlləyə əlavə edilən 51.1-1 maddəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla, dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən bir ay ərzində yeddi gündən çox buraxılmasına görə şagirdin valideyni yüz manat miqdarında cərimə edilir.

Layihə qəbul olunaraq MM-in plenar iclasına tövsiyə olunub.

"Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları 5 illik minimumu yeniləyib

**Azərbaycan Mərkəzi Bankının (AMB) sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 2015-ci il dekabr ayının 1-nə 6 245,6 mln. ABŞ dolları təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 8 748 mln. dollar və ya 58,33% azdır.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, oktyabr ayı ilə müqayisədə noyabrda valyuta ehtiyatlarında 589 mln. manat və ya 8,62% azalma baş verib.

Ümumiyyətlə, ilin əvvəlindən Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları 7 512,7 mln. dollar və ya 54,6% azalıb. Qeyd edək ki, 2014-cü ilin dekabr ayında Mərkəzi Bankın valyuta ehtiyatları 13 758,3 mln. dollar olub.

Onu da qeyd edək ki, sonuncu dəfə Mərkəzi Bankın valyuta ehtiyatları 29.11.2010-cu il tarixdə bu səviyyədə olub. Beləliklə, Mərkəzi Bankın valyuta ehtiyatları 5 illik minimumu yeniləyib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 269 (6297) 3 dekabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Dekabrın 2-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun növbəti məhkəmə prosesi keçirildi. Əvvəlki proseslərdə olduğu kimi, bu dəfə də məhkəmə binası önündə vicdan məhbusunun ailəsindən və azsaylı vətəndaş cəmiyyətinin nümayəndələrindən başqa heç kim yox idi.**



# Rauf Mirqədirovun məhkəməsində şahidlər dindirildi

## Fuad Ağayev: "Onlar cəmiyyətdə tanınan adamlar deyillər"

Məhkəmə iclası saat 10:30-da hakim Əlisultan Osmanovun sədrliyi ilə başladı. Proses məlum səbəblərdən qapalı keçirildiyinə görə, iclasın gedişatı barədə yalnız iki saatdan sonra xəbər tuta bildik. Məhkəmə günorta saatlarında başa çatdı.

**Vəkil Fuad Ağayev** mətbuata açıqlamasında məhkəmə istintaqının bitmədiyini bildirdi: "Bu gün Rauf Mirqədirovun məhkəməsi oldu. Şahid ifadələri ilə proses davam etdi. İki şahid ifadə verdi. Onlar cəmiyyət arasında elə də tanınmırlar. Məhkəmə istintaqı hələ bitməyib. Növbəti proses dekabrın 9-da 10:30-da olacaq. Rauf Mirqədirov özünü normal hiss edirdi, durumu əvvəlki kimi idi".

Xatırladaq ki, Rauf Mirqədirov ötən il aprelin 19-da Türkiyədən deportasiya olunaraq həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 274-cü maddəsi (Dövlətə xəyanət) irəli sürülüb. Jurnalist ona qarşı irəli sürülən ittihamları rədd edir. Yerli və beynəlxalq hüquq təşkilatları onu vicdan məhbusu kimi tanıyırlar. Mirqədirovun ittiham olunduğu maddə üzrə onu ömürlük və ya 15 ilə qədər həbs cəzası gözləyir.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**








# Facebookda siyasi dava və müzakirələr azalıb

## Saxta profillər yoxa çıxıb, twitterə üz tutanlar çoxalıb

**Son vaxtlar facebook sosial şəbəkəsində siyasətçilərin aktivliyi, siyasi davalar nəzərə çarpmır. Paylaşımlar əsasən sosial səpkidə, informasiya xarakteri daşıyan məlumatlardan ibarət olur.**

Halbuki ötən illərdə Azərbaycanda baş verən siyasi proseslərdə facebook mühüm rol oynayırdı. İllərdir ölkəmizdə siyasi qüvvələr arasında mübarizə və mübahisələr əsasən sosial şəbəkələrdə gedirdi. Müxtəlif saxta profillərdən hansısa qruplarda müzakirələrə cəlb olunanlar real profillərdən də fəfə artıq idi. Siyasi liderlərin də əksəriyyəti bu müzakirələrə qoşulub öz şərhlərini verir, beləcə "feysbuk davası" daha da genişlənirdi.

Son vaxtlar siyasi liderlərin də facebooka olan marağı azalıb, onlar çox az hallarda status paylaşır və ya müzakirələrdə iştirak edirlər.

Bəs görəsən virtual mübarizədə fəallıq niyə azalıb?

**Psixoloq Dəyanət Rzayev məsələyə bu cür münasibət bildirdi:** "Sosial şəbəkədən uzun müddətli istifadə sonradan insanlarda daxilən toxluq yaradır, xüsusən də nəticə olmayanda. Yəni artıq sosial şəbəkə istifadəçiləri burda həqiqəti tapa bilməyəndə, araşdırma və suallarına cavab almayanda yorulub usanır və beləliklə, passivlik yaranır".

İnternet izləyiciləri deyir ki, son vaxtlar, ümumiyyətlə, Azərbaycanda aktiv facebook istifadəçilərinin sayı azalıb. Əvəzində isə twitter istifadəçilərinin sayı 50 faizdən çox artıb. Məlum olub ki, siyasi liderlər də artıq məhz bu sosial şəbəkədə aktivlik göstərməyə başlayıb.

**Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüzün fikrincə, buna səbəb sosial şəbəkə istifadəçilərinin daha çox mobil görüntülərə üstünlük verməsi ilə bağlıdır:** "Statistikalara nəzər yetirəndə görürük ki, facebookda siyasi, ictimai müzakirələrin azalması təkcə ölkəmizdə deyil, bir çox ölkələrdə də müşahidə olunur. Bu da onunla izah olunur ki, insanlar daha çox videoməlumatların paylaşılması və baxılmasına üstünlük verir. Son vaxtlar video yönümlü tətbiq proqramlarının üzə çıxması bunu sübut edir. Hazırda twitterin populyarlaşmasına onun da yeni mobil tətbiqinin meydana çıxması səbəb oldu. Məhz bundan sonra bu sosial şəbəkə daha da nüfuz qazandı.

Facebooka gəldikdə isə son vaxtlar bu sosial şəbəkədə müəyyən təmizləmə əməliyyatı aparıldı, aktiv olmayan uzerlər, saxta profillər çıxarıldı. Çox güman ki, bu proses sosial şəbəkənin administrasiyası tərəfindən hələ də davam etdirilir. Bu bir tendensiyadır.

Onu da vurğulayım ki, hazırda instaqram twitterdən də çox nüfuza malik olub. Son statistikaya görə, instaqram istifadəçilərinin sayı 500 minə qədər gəlib çatıb. Twitter isə bu məsələdə ondan geridə qalır. Çünki insanlar daha çox multimediaya üstünlük verir, nəinki yazı-pozuya".

❑ **Xalidə GƏRAY**

# Nardaranlı uşaqlardan müsahibə almaq qeyri-peşəkarlıqdırmı...

## Mətbuat Şurası jurnalistləri qınayıb, ekspert isə onlara ehtiyatlı olmağı tövsiyə edir

**Nardaran olaylarında diqqəti çəkən detallardan biri də oradakı uşaqların verdiyi açıqlamalar idi. Ayrı-ayrı media orqanlarının nümayəndələri ilə söhbətlərində, videomüsahibələrində azyaşlılar bu olaylara münasibət bildirir, "sona qədər vuruşacağıq, yolumuzdan dönməyəcəyik" kimi açıqlamalar verirdilər. Bu, həmin olaylar zamanı jurnalistlərin oxucularına göstərmək istədiyi həqiqətlərdən biri olsa da, buna tənqidi yanaşanlar da oldu.**

Bu tənqidlərdən biri Mətbuat Şurasından gəldi. Qurumun yaydığı bəyanatda bildirildi ki, jurnalist uşaqların məsumluğu və inamından sui-istifadə etməməli, onların hüquqlarına hörmətlə yanaşmalı və onların fikirlərinin çatdırılması ilə bağlı xüsusi məsuliyyət nümayiş etdirməli, valideynlərinin və ya qanuni himayəçilərinin icazəsi olmadan uşaqlardan müsahibə götürməməyə səy göstərməlidir. Qeyddə həmçinin bildirilib ki, daha vacib ictimai əhəmiyyət kəsb edən maraqların mövcud olduğu hallar istisna olmaqla, jurnalist uşaqların şəxsi həyatı barədə məlumatları və ya fotoşəkilləri dərc etməməlidir. Jurnalist faciə və ya cinayət əməli nəticəsində zərər çəkmiş, yaxud belə hadisələrə cəlb edilmiş uşaqların kimliyini mütləq qorumalıdır.



**Arif Əliyev: "Professionallıq imkan verir ki, o şəxsin üzünü göstərmədən, identifikasiya etmədən ümumi mənzərəni də verəsən"**

Və indi ortada jurnalistlər üçün də tərəddüd dolu məqam var. Bu sayaq hadisələrdə ictimai əhəmiyyətli olduğunu nəzərə alıb, uşaqları respondent kimi seçmək doğru deyilmi? Əgər olayların mərkəzində məktəbə getməyən və bunun əvəzində mübarizə aparacaqlarını deyən azyaşlılar dayanıbsa, gerçəyin bu üzünü oxucuya çatdırmaq həm peşə kodeksi, həm də xəbərçilik prinsipindən mübahisə doğururmu?

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev bildirdi ki, bu cür mübahisələr dünya mətbuatında da tez-tez baş verir. Son olaraq uşaq respondentlər və bu məqamda medianın tutduğu mövqe Böyük Britaniyada da müzakirə olunub. Müsahibimiz bu səbəbdən də beynəlxalq standartları misal çəkdi. Bildirdi ki, beynəlxalq standartlara görə, münaqişəli, ölüm olan yerlərdə uşaqların səsinə, görüntüsünə olduqca ehtiyatla yanaşmaq tələb olunur:** "Hətta onların belə məsələlərlə bağlı səsləri verilərsə, üzlərinin bu və ya digər formada gizlədilməsi məsləhət görülür. Amma mən konkret Nardaran hadisələrində jurnalist necə davranmalıdır sualına cavab verə bilərəm. Azərbaycan mühitində biz uşaqlardan qat-qat artıq bilirik ki, Nardaran məsələsi üzdə görünəndən qat-qat mürəkkəbdir. Bunun arxasında din də var, başqa ölkələrin təsiri də, Azərbaycan dövlətinin yanlışlıqları da. Mən olsam, jurnalist kimi bu məsələdə ehtiyatla davranardım. Orda bir çox adamların çox şey veclərinə deyil. Amma uşaqlarla bağlı məsələdə maksimum həssas olmaq lazımdır".

**A.Əliyev hesab edir ki, jurnalistlərin bu məsələdə nardaranlı uşaqların dünyasını göstərmək istəyi tamamilə təbii və anlaşılandır. Amma bu məqamda qızıl ortanı tapmaq lazımdır:** "Professionallıq ondan ibarətdir ki, uşağın marağını gözləyəsən. Professionallıq imkan verir ki, o şəxsin üzünü göstərmədən, identifikasiya etmədən ümumi mənzərəni də verəsən. Bu, jurnalistin bəhanəsidir ki, eləməliyəm və edirəm. Sən bunu etməlisən. Amma professionallıq bundadır ki, sən bunu edərkən peşə normalarını qoruyasan".



❑ **Sevinc TELMANQIZI**



# Bir üzrlə sülh yaradan xoşməramlı

Samir SARI

**Oqtay Ataxan adlı bir siyasət adamının Türkiyənin yerinə Rusiyadan üzr istəməsi gerçəkdən aktual, unikal, analoqu olmayan, həm də gözlənilməz hadisədir. Bu addım müasir politologiya dərsliklərinə düşməlidir.**

Vallahi, adamı olsa, onu Nobel sülh mükafatına namizəd göstərər. *(Hərçənd Oqtay müəllimin adamı olsa, heç zad yox, eləcə Binəqədi tərəflərdə MİS rəisi qoydurardı, məsələ bitərdi)*. Çünki təsəvvür edini, bu üzrxahlıq bəlkə də III Dünya müharibəsinin qarşısını alır *(ola bilər, artıq alıb)*.

Çünki təyyarəsi vurulmuş ruslar çox hiddətlidirlər, Türkiyə ilə neçə milyard dollarlıq ticarət sazişlərini, alverlərini pozurlar. Bir-iki milyonluq təyyarəyə görə bu, əlbəttə, əbəs işdir. Bir təyyarəyə görə acıq edib yüz təyyarənin pul-parasını itirmək nəyə lazımdır?

Məsələyə, oxumuş adamların sözü olmasın, praqmatik prizmadan sərf-nəzər eləmək lazımdır. Bir düşünün, qırıcı təyyarə nədən ötrüdür? Müharibədən ötrü. Suriyada nə gedir? Müharibə. Bu təyyarə orda nə edirdi? Mövqelərə zərbə endirirdi. Axırda nə oldu? Özünə zərbə endirdilər.

Yəni qırıcı təyyarələrin alın (bort) yazısında vurub-vurulmaq var. Su-24 də bir vurdu, iki vurdu, axırda da vuruldu. Yaşlaşıb pensiyaya çıxası deyildi ki. Bir gün onsuz da vurulacaqdı.

İndi buna görə qanqaraçılıq salmağın nə mənası var. Durub şimal qütbündən isti bir ölkəyə gedib müharibə aparırsan, demək, itki də verəcəksən. Döyülmək istəmirsən, davaya girmə, girdinsə, sənə də bir-iki şillə-qapaz dəyəcək. Bu işin kaderi budur, türkün sözü.

Rus demişkən, kak raz, Suriya səmalarında o iş baş verdi, ona görə də onu namus-qeyrət söhbətinə çevirmək doğru deyil.

Oqtay Ataxan da olmasa, Allah bilir, nələr olardı. Odur, Ərdoğan iki ayağını bir başmağa dirəyib, deyir, qırxdır, bir əskik deyil, üzr istəməyəcəyik. Putin də ondan betər höcətdir, deyir, yox, bu hadisə kürəyimə saplanan xəncərdir.

Bir şey ki, kürəyə saplanan xəncəri bir üzrlə beldən çıxarmaq olar, onu gərək vaxtında çıxarasan. Oqtay bəy də dünyanın, regionun, ölkənin taleyini nəzərə alır, ona görə üzr istəyir ki, iki qüdrətli ölkə tutaşmasın.

Düzdür, Kreml bu üzrə qane olmayacaq, deyəcək, a tı kto, qospodin Ataxan, idi na yuq. Amma danmaq olmaz, niyyət olaraq gözəl niyyətdir. Qoy həmişə sülh olsun.

Bir var, yazıçılar kimi Türkiyəyə Rusiyadan üzr istəməyi tövsiyə edəsən, bir də var, özün qabağa durub üzr istəyəsən. Fərqli şeylərdir.

Əslində Oqtay bəy gərək bu trendini davam etdirsin. Dünyada konflikt zonaları, qaynar bölgələr çoxdur. Qoy xutuların əvəzindən tutsilərdən də üzr istəsin *(hərçənd ola bilər, tərsinədir, tutslərin əvəzindən xutulardan üzr istənilməlidir, dəqiq bimirəm)*.

Kim bilir, bəlkə Suriyadakı müharibə bir üzrdən asılıdır, heç kəs özünə sığışdırıb üzr istəmir və müharibə davam edir. Oqtay bəy Bəşər Əsədin yerinə Əbubəkr əl-Bağdadidən üzr istəsə, o da daş-qaya deyil ki, deyər, Əsəd, səni qurban olasan Ataxana, arada o olmasaydı, şəxsən ağız açmasaydı, səni bağışlamazdım.

Bu yerdə gərəkdir ki, Oqtay müəllim Rusiyanın yerinə də Ukraynadan üzr istəsin. Çünki orda da vəziyyət ürəkaçan deyil, sülhə ehtiyac var. Bax, neçə vaxtdır Malayziya və Hollandiya Rusiyanın vurdurduğu sərnişin təyyarəsinə görə üzr tələb edirlər, Moskva da məhəl qoymur, cənab Ataxan bu münaqişəni də həll edə bilər. Bu işin bir üzrlük canı var.

Bəs Obama bu işə nə deyər? Alqışlayar. Bəlkə də Pan Ki Mun Oqtay Ataxanı BMT-nin xoşməramlı səfiri təyin edər ki, o da qaynar nöqtələrdə tərəflərdən üzr istəyə-istəyə gəzsin, dünyada sülhü bərqərar eləsin.

Bircə xəbərdarlıq edin, O.Ataxan bizim əvəzimizdən ermənilərdən üzr istəməsin. Bunu ondan qabaq edən biri oldu, düz iki ay baş-qulağımız getdi. Ancaq o, ermənilərin əvəzindən özümüzdən üzr istəsə, bəlkə də qəbul edə bilərik. Bir az sıyıq camaatıq biz.

# Etibar Əliyevin 1 ayı - "Texnikabank"da nə dəyişdi?

## "Hər şeyi geri qaytarırıq - inamı da, etibarı da, bankın satılmış əmlak və avadanlıqlarını da"

**"Texnikabank"ın İdarə Heyətinin sədri Eldar Cəfərovun musavat.com-a müsahibəsini təqdim edirik.**

***- Eldar müəllim, "Texnikabank" rəhbərliyinin dəyişməsindən bir ay ötdü. Etibar Əliyev təxminən 1 ay öncə yenidən bankın rəhbəri postuna qayıtdı. Bu müddətdə bankın həyatında, fəaliyyətində nə kimi müsbət dönüş baş verib? Bankın inkişafı üçün ilk olaraq nədən başlamısız?***

- Təşəkkür edirəm. Sualınıza gəldikdə isə ilk növbədə onu deyim ki, bankın fəaliyyəti tam bərpa edilib. Müşahidə Şurasının qərarı ilə artıq İdarə Heyəti formalaşıb, bankın yaxın müddət üzrə inkişaf strategiyası müəyyənləşdirilib. Həmin strategiyaya uyğun olaraq, bankda rebrendinq aparılıb və köhnə adı - "Texnikabank" özünə qaytarılaraq yeni loqo və sloqan təsdiqlənib. Bankın hesablarına qoyulmuş qadağalar aradan qaldırılıb, fəaliyyətini dayandırmış filial və şöbələrin işi bərpa edilib. Notariat kontorlarında ləğv olunan qeyri-nağd ödəniş sistemlərinin avadanlıqları yenidən quraşdırılaraq fəaliyyətə başlayıb. Ən önəmlisi, bank, müştəriləri və əmanətçiləri qarşısında öhdəliklərini tam həyata keçirir.

Həmçinin bankın satılmış əmlak və avadanlıqlarının banka qaytarılması prosesi davam edir. Plastik kartlar üzrə əməliyyatlar tam bərpa edilmiş və bu sahənin inkişaf etdirilməsi üçün ciddi layihələr həyata keçirilir. Artıq MDB, yaxın və uzaq xarici ölkələri əhatə edən sistemlər vasitəsilə sürətli pul köçürmələrinə də start vermiş xidmətlər bankın bütün filial və şöbələrində müştərilərə təqdim olunur.

Düşünürəm ki, bir ay ərzində ciddi işlər görülüb və qeyd etdiyim kimi, əsas amil ondan ibarətdir ki, bank öz vəzifə və öhdəliklərini yerinə yetirir və gələcəkdə də bu strategiyaya uyğun olaraq işlər davam etdiriləcək.

***- Son vaxtlar əmanətçilərin pulları qaytarılmırdı, kredit verilişi dayandırılmışdı, kredit kartları işləmirdi və s. Ölkənin ən iri və yüksək gəlirlə işləyən bir bankının bu günə salınmasının səbəbləri aşağı-yuxarı aydındır, ictimaiyyət bunun səbəblərini yaxşı bilir. Etibar müəllim mətbuata verdiyi açıqlamalarda bildirmişdi ki, bank əvvəlki fəaliyyətini və prestijini geri qaytaracaq. Bunun üçün nə qədər zaman lazımdır?***

- Dediyim kimi, artıq bankın bütün istiqamətlər üzrə fəaliyyəti bərpa edilib. Ümumiyyətlə, Etibar müəllimin "Texnikabank" rəhbərliyinə qayıtması bankın həyatında bir dönüş olub. Çox qısa müddətdə bank defolt vəziyyətindən çıxarılıb, likvidlik təmin olunub və yenidən ən etibarlı bank imicini formalaşdırır.

İpoteka Fondu üzrə "Texnikabank" yenidən fondun layihələrinə cəlb edilib, dövlət müəssisələri və icra orqanları ilə pozulmuş münasibətlər yenidən bərpa edilib. Keçmiş rəhbərliyin vaxtında bir çox qurumlarla yaranan borcların bəzisi artıq bağlanıb, bəziləri isə ödənilməkdədir. Bankın özünə kredit borcu olan müştərilər də borclarını qaytarmağa başlayıb. Bu isə onu göstərir ki, aparılan erkən, təxirəsalınmaz tədbirlər nəticəsində bank əvvəlki nüfuzunu qaytara bilib.

Hazırda "Texnikabank" xidmət səviyyəsinin yüksəldilməsi və çeşidin genişləndirilməsi istiqamətində bütün tədbirləri həyata keçirir, müştərilər yüksək səviyyədə bank xidmətləri ilə təmin olunur. Həmçinin bankın www.texnikabank.az ünvanında yerləşən internet saytı yeni formatda işlənib-hazırlanaraq, müştərilərin ixtiyarına veriləcək. Bu sayt vasitəsilə müştərilər bank haqqında bütün bilgilərə yiyələnəcək və rahat bank əməliyyatlarını həyata keçirə biləcəklər.

***- 2012-ci ilin martından sonra təkcə bankın əmlakı, banka yerləşdirilən əmanətlər dağıdılmadı, həm də Etibar müəllimin illərdən bəri formalaşdırdığı komanda dağıdıldı. Hazırda "Texnikabank"dakı əvvəlki kadrları cəlb edə bilirsinizmi?***

- Doğrudur. Vaxtilə 1000 nəfərdən çox əməkdaşı olduğu halda, hazırda bankda 300 nəfər çalışır. Son üç ildə banka rəhbərlik etmiş şəxslər tərəfindən bankın peşəkar kadrları işdən uzaqlaşdırılıb, hətta elə sahələr var ki, məsələn, proqram təminatı iflic olmuşdu. Bəzi mütəxəssislər isə özləri həmin rəhbərliklə işləməyin mümkünsüzlüyündən, öz hesablarına məzuniyyətə çıxmışdılar. Hazırda bankda işin keyfiyyətini yüksəltmək məqsədilə yeni struktur formalaşıb və kadr islahatlarına start verilib. Bankdan uzaqlaşdırılan peşəkar mütəxəssislər yenidən öz işlərinə qaytarılır. Departament və şöbələr gücləndirilmiş iş rejimində yeni struktura uyğun olaraq işləyirlər.

***- Beynəlxalq Bankın keçmiş rəhbərliyinin idarəçiliyində buraxılmış nöqsanlar və mənfi proseslər Azərbaycanın bank sektoruna olan inamı, etibarı ciddi şəkildə zədələyib. Artıq insanlar pullarını banklara əmanət etməyə tərəddüd edir. Sizin rəhbəri olduğunuz "Texnikabank" da ölkənin ən iri maliyyə qurumlarındandır. Belə bir vəziyyətdə insanların inamını bərpa etmək üçün nə kimi planınız, konsepsiyanız var? Banka əmanət cəlb etmək istiqamətində çətinliklə üzləşirsizmi?***



Eldar Cəfərov

- Bilirsiniz ki, istənilən bankın uğurla çalışması üçün müştəri etimadı ən vacib faktordur və biz bankın rəhbərliyinə gəldikdən sonra əsas diqqəti məhz bu amilə yönəltmişik. Nəticədə, vaxtilə digər banklara üz tutmuş müştərilər yenidən banka qayıdır, fiziki və hüquqi şəxslər yenidən bizim bankdakı hesablarından əməliyyatları həyata keçirir. Banka müraciət edən insanların sayı gözlədiyimizdən də böyük surətlə artır. Yəni artıq əhalinin bizə olan inamını bərpa edə bilmişik.

***- Devalvasiyadan artıq bir müddət ötüb. Bank sektoru tədricən yeni şəraitə uyğunlaşmaqdadır, lakin eyni zamanda dünyada çox ciddi proseslər gedir və təbii ki, Azərbaycana da təsir edir. Belə olanda, bank hansı addımlar atmalıdı? Özünü və müştəriləri necə sığortalamalıdı? Ümumiyyətlə, iqtisadi inkişafı ölkəmizdə necə görürsünüz?***

- Bilirsiniz, cənab Prezident müasir dünyada gedən iqtisadi prosesləri çox gözəl bilir və bu gün ölkəmizdə formalaşmış iqtisadi sabitlik də məhz dövlət başçısının yürütdüyü ölçülüb-biçilmiş siyasətin nəticəsidir. Ona görə ikinci devalvasiyanın olacağını hesab etmirik. Ölkənin makroiqtisadi göstəriciləri Mərkəzi Bankın tam nəzarətindədir və düşünülmüş kredit siyasəti həyata keçirilir. Hesab edirik ki, ölkədə biznes mühiti fəallaşacaq, bank sektorunda ciddi yeniliklər və inkişaf müşahidə ediləcək.

YENİ MÜSAVAT
N 269 (6297) 3 dekabr 2015

**Nardaran hadisələri də Milli Təhlükəsizlik Nazirliyində (MTN) ifşa olunan "generallar bandası"na diqqəti azaltmayıb. Aralarında bir neçə general olan bandanın 19 üzvü barədə həbs qərarının verilməsinə baxmayaraq, "sprutun başı" olan Eldar Mahmudov hələ də həbsxana divarları arasında deyil.**

# General Çovdarov "sprutun başı" rolunda

## Həbsdəki MTN-in sabiq idarə rəisi həyatına təhlükə olacağından bərk narahatdır və bu səbəbdən kamerasını dəyişdirməyə və ya müalicə müəssisəsində izolyasiya olunmağa çalışır; onun tezliklə sensasion açıqlamalar verəcəyi gözlənilir...



Ötən saylarımızda bu mövzuya toxunarkən bildirmişdik ki, sabiq nazir Xüsusi Dövlət Mühafizə İdarəsi əməkdaşlarının ciddi nəzarəti altında Bakı ətrafındakı dövlət bağlarından birində saxlanılır. Bildirilirdi ki, sabiq nazir ifadəsi alınması üçün xüsusi konvoyla istintaqa aparılarkən "özünü çox pis hiss etməsi" səbəbindən geri qaytarılıb. Onu da qeyd etmişdik ki, cinayət məsuliyyətinə cəlb edilənlər sabiq naziri suçlamırlar, onun da həbs edilməsini tələb etmirlər.

MTN-in zərərsizləşdirilən mütəşəkkil cinayətkar qruplaşmasının ən qəddar personası olan general Akif Çovdarov haqda yayılmış yeni məlumatlar da bu faktı bir daha təsdiq edir. Virtualaz.org saytı hüquq-mühafizə orqanlarındakı mənbələrdən öyrənib ki, A.Çovdarov ona qarşı irəli sürülən çoxsaylı ağır cinayət ittihamları ilə razılaşmır. Üstəlik, həbsinin "sifarişli və qərəzli olduğunu" iddia edir. Məlumata görə, Akif Çovdarov həbsini kimlərin sifariş verdiyini bildiyini də deyir.

Mənbənin bildirdiyinə görə, A.Çovdarov saxlanılma şəraitindən də narazıdır, kamerasının "soyuq olmasından" şikayətlənir. Üstəlik, səhhətində *(ürəyində, mədəsində)* ciddi problemlərin olduğunu əsas gətirərək müntəzəm həkim müayinəsi altında saxlanılmasını istəyir.

Həmçinin məlum olub ki, A.Çovdarov təxminən il yarım əvvəl vəzifəsindən istefa vermək istəyib. Səhhətinin yaxşı olmadığını əsas gətirərək o vaxtkı nazir Eldar Mahmudova müraciət edərək işdən azad olunmasını xahiş edib. Lakin Eldar Mahmudov öz "kassiri"nin işdən çıxmaq xahişini təmin etməyib.

Xatırladaq ki, bundan əvvəl Akif Çovdarovun saxlanılma şəraitindən və təcridxana işçilərinin onu sıxışdırmasından narazılıq edərək prezident İlham Əliyevə müraciət etməyə hazırlaşdığı haqda məlumat daxil olmuşdu.

Lakin Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr mərkəzi bildirmişdi ki, A.Çovdarovun və onun vəkillərinin bu şikayətinin heç bir əsası yoxdur.

A. Çovdarovun bu cür reaksiyası əslində gözlənilən idi. Çünki ona qarşı irəli sürülən ittihamlar çox ağırdır və faktiki MTN-dəki kriminal dəstənin rəhbərliyi ona "yüklənir". Qeyd edək ki, A. Çovdarov 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendum) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) maddələri ilə ittiham olunur.

Bundan başqa, onun barəsində Cinayət Məcəlləsinin 145.3-cü (Qanusuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə də cinayət işi açılıb.

"Yeni Müsavat"ın məlumatına görə, A.Çovdarov bu vəziyyətlə barışmaq və ömürlük məhkum həyatı yaşamaq niyyətində deyil. Bu səbəbdən də onun tezliklə MTN-də baş verənlərlə bağlı sensasion açıqlamalar verəcəyi gözlənilir. Bir mənbə deyib ki, A.Çovdarov həyatına da təhlükə olacağından bərk narahatdır və bu səbəbdən kamerasının dəyişdirilməsini və ya müalicə müəssisəsində izolyasiya olunmasını istəyir. A.Çovdarov əməliyyatçı kimi yaxşı başa düşür ki, onun aradan götürülməsində maraqlı olan qüvvələr ola bilər. A. Çovdarovun başına bir iş gələrsə, MTN-də baş vermiş bir sıra digər cinayətlər də ona "yüklənə" bilər. Bu səbəbdən də general daima diqqətdə qalmasını istəyir və bu səbəbdən də gah kamerasının soyuq olmasını, gah sifarişlə həbs edilməsini bəyan etməklə gündəmdə qalmağa çalışır. Məlumatlara görə, Çovdarov ailəsini və yaxın qohumlarını hələ bir müddət əvvəl təhlükəsizlik səbəbindən ölkədən çıxmalarına göstəriş verib. Onlar Gürcüstana gediblər və istisna deyil ki, buradan da üçüncü ölkəyə sığınsınlar.

❑ **"Yeni Müsavat"**

# Nazirlik Razi Nurullayev qanadını da AXCP kimi tanımadı

## Məsələ məhkəmə müstəvisində həll olunacaq; **Razi Nurullayev:** "Ədliyyə Nazirliyi tərəf olmaq istəmədi..."

**Ədliyyə Nazirliyi Azərbaycan Xalq Cəbhəsi Partiyasının Razi Nurullayev qanadının da qurultayının nəticələrini tanımayıb. Nazirlik Əli Kərimliyə verdiyi cavabın oxşarını Nurullayevə də göndərib. Rəsmi qurum məhkəməyə müraciət etməyi tövsiyə edib.**


Razi Nurullayev

Razi Nurullayevin məsələyə dair münasibətini öyrəndik. Yeni AXCP sədri nazirliyin bu məsələdə tərəf olmaq istəmədiyini söylədi: "Gözlənilən bir cavab oldu. Sadəcə, Ədliyyə Nazirliyi tərəf olmaq istəmədi. Bunun üçün məsələnin məhkəmə predmeti olduğunu söyləyib. Amma hesab edirəm ki, nazirlik bu məsələ ilə bağlı düzgün mövqe tutmur. Onun üçün də Ədliyyə Nazirliyini məsələni tezləşdirmək, yubandırmamaq üçün məhkəməyə vermişdik. Hazırda məhkəmənin cavabını gözləyirik. İndi atacağımız addım yoxdur. Çünki günlər öncədən adekvat addımımızı atmışıq, yeni nazirliyi məhkəməyə vermişik. Məhkəmə çəkişməsində yaşanacaq prosesləri ona uyğun olaraq dəyərləndirəcəyik".

**R.Nurullayev nazirliyin onları AXCP kimi tanımamaqda əks qanadın təsirinin olmadığı qənaətindədir:** "Əks qanadın hər hansı bir məsələyə təsir gücü yoxdur. Onları tamamilə bitmiş qüvvə hesab edirəm. Onlara qüvvə kimi ad vermək gülünc səslənir. Əli Kərimlinin Ədliyyə Nazirliyinə və cəmiyyətə təsir etmək gücü ola bilməz. Sadəcə, nazirlik ola bilsin ki, yaxasını kənara çəkmək istədi. Artıq məsələnin məhkəmə müstəvisində həll olunacağı dəqiqləşib. Düşünürəm ki, məhkəmədə Əli Kərimli qanadı üzərində tam qələbə çalacağıq. Başqa variant yoxdur. Çünki Əli Kərimlinin özü tərəfindən AXCP-nin nizamnaməsi dəfələrlə pozulub. Bu faktları ortaya qoyacağıq. Onların qurultay öncəsi keçirdikləri rayon konfranslarında etdikləri saxtakarlıqlar, qanunsuzluqlar yəqin ki, məhkəmə tərəfindən nəzərə alınacaq. Nazirliyin qərarının Əli Kərimliyə sərf etdiyini demək olmaz. Əks tərəfin sənədləri geri qaytarılana qədər onlar özlərini kübar, yüksəkdə hiss edirdilər. Düşünürdülər ki, AXCP kimi qeydə alınacaqlar. Amma nazirlik onların bu düşüncələrinə tamamilə nöqtə qoydu. Onların iradəsi haqlı olaraq sındırıldı. Bu baxımdan deyə bilmərəm ki, sənədlərimizin geri qaytarılması Əli Kərimliyə sərf edir. Cəmiyyət, siyasətçilər üçün düşünürəm ki, məsələni məhkəmə müstəvisində həll etməyimiz ciddi mesaj olacaq. Bəlkə də Ədliyyə Nazirliyi bizi daha tez tanısaydı, çox söz-söhbətlərə səbəb olardı. Məhkəmə müstəvisində onların üzərində qələbə qazanandan sonra tamamilə bitəcəklər".

**Müsahibimiz Ə.Kərimliyə partiyasının adını dəyişməyi və yenidən rəsmi quruma müraciət etməyi məsləhət gördü:** "Əvvəl səsləndirdiyim fikirləri yenə də diqqətə çatdırıram. Biz qələbəyə inamlıyıq. İnamımıza görə bu işə qədəm qoyduq. Bəri başdan Əli Kərimli partiyasının adını dəyişib, sənədlərini yeniləyib Ədliyyə Nazirliyinə yenidən müraciət etsə, daha münasib olardı".

**Yeni AXCP-nin sədri partiyanın hüquqi varisi kimi tanınmağa daha yaxın olduqlarını da qeyd etdi:** "Nazirliyin Əli Kərimlini tanımaması faktı reallığın təsdiqidir. Çünki Ədliyyə Nazirliyinin timsalında hökumət cəmiyyətdə iki AXCP-nin olduğunu təsdiqlədi. Onlar artıq özləri haqqında yüksək düşüncəyə malik deyillər. Böyük-böyük danışa bilmirlər. AXCP-ni onsuz da Əli Kərimli məhv etmişdi. Son proseslər onu göstərir ki, ümumiyyətlə, belə bir qurum yoxdur. Onlar ancaq "Azadlıq" qəzetinin səhifələrində görünürlər. Bir də facebookda özləri deyib özləri eşidirlər. Vİ-Fİ şəbəkəsini xatırladırlar. Məhdud dairədə mövcuddurlar. Nazirliyin barəmizdəki qərarına sevinirlər. Qoy sevinsinlər. İnsan daim qəm-kədərlə yaşamamalıdır. Amma ümid edirəm ki, sevincləri çox da uzun çəkməz".

**Razi bəy məhkəmənin verəcəyi qərara əvvəlcədən münasibət bildirməyin çətin olduğunu söylədi:** "Məhkəmə prosesi hələ olmayıb. Prosesə kimin başçılıq edəcəyi, hansı formada keçiriləcəyi belə bəlli deyil. İndidən məhkəmə ilə bağlı bir söz deyə bilmərəm. Azərbaycan məhkəmələrinə inanıram desəm yalan olar. Çünki heç vaxt inanmamışam. Amma istənilən halda məhkəmə bir qərar qəbul etməlidir. Düşünürəm ki, məhkəmənin başqa qərar qəbul etmək şansı da yoxdur. Artıq ictimai rəy də tərəfimizə yönəlib. Bu baxımdan məhkəmə fərqli qərar çıxarsa, bu, özünü ifşa olacaq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 269 (6297) 3 dekabr 2015



Məhəmməd Əmin Rəsulzadə

# YAP-dan Naqif Həmzəyevin Rəsulzadəni təhqir etməsinə reaksiya gəldi

## Gəncənin deputatı dediklərini danıb; **Siyavuş Novruzov:** "Bildirir ki, mən belə bir pis fikir söyləməmişəm"



Naqif Həmzəyev

**YAP Gəncə təşkilatının sədri, parlamentə Gəncədən deputat seçilən Naqif Həmzəyevin Azərbaycan Demokratik Cümhuriyyətinin qurucusu, Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadəni aşağılaması çox sərt reaksiya doğurub.**

Azərbaycan tarixinin şərəfli səhifələrində özünə yer almış M.Ə.Rəsulzadəyə qarşı belə həqarətli davranış ölkənin milli dəyərlərinə, keçmişinə, indisinə və gələcəyinə təhqir kimi qarşılanıb. Hakim partiyanın mandat sahibi olan üzvünün dediklərini necə qarşıladığını öyrənmək üçün YAP icra katibinin müavini, deputat Siyavuş Novruzova müraciət etdik.

**S.Novruzov** "Yeni Müsavat"a bildirdi ki, bu məsələ ilə bağlı N.Həmzəyevin özü ilə danışıb: "Mən onunla söhbət eləmişəm, dedi ki, belə fikir söyləməmişəm". YAP funksionerinə deputatın Rəsulzadəyə qarşı həqarətini təsdiqləyən audioyazının olduğunu xatırlatdıqda bunları bildirdi: "İndi mən onu deyə bilmərəm. Hər halda, onun mənə dediyi fikir bundan ibarətdir. Dəfələrlə soruşmuşam. Deyir ki, mən belə bir pis fikir söyləməmişəm. Yəqin ki, jurnalistlə arasında olan anlaşılmazlıqdan irəli gəlib". S.Novruzov dövlətin M.Ə.Rəsulzadə və silahdaşlarına münasibətdən də danışdı: "Nəinki Rəsulzadəyə, bütün Demokratik Cümhuriyyətin qurucuları ilə bağlı dövlətin mövqeyi bəllidir. Dövlət onları yüksək qiymətləndirir və hər biri ilə də bağlı tədbirlər, yubileylər keçirilir. Demokratik Cümhuriyyətlə bağlı abidə kompleksinin qoyulması da nəzərdə tutulur. Bir abidə var və yenisinin qoyulması ilə bağlı layihə elan olunub, işlər gedir. Yəni bununla bağlı dövlətin mövqeyi açıqdır, bəllidir".

**YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə də modern.az saytına N.Həmzəyevin bu fikirləri səsləndirmədiyini deyib:** "Mən onun açıqlamasını oxudum və Naqif Həmzəyevə inanıram. Gənc deputatımız özünün də dediyi kimi, bu fikirləri işlətməyib və onun fikirləri təhrif olunub, tamam başqa fikirlər verilib".

**A.Mirzəzadə deyib ki, N.Həmzəyev Yeni Azərbaycan Partiyasının fəal üzvlərindəndir:** "O, özünü siyasi fəaliyyətdə, partiya işində həmişə müsbət tərəfdən göstərib, yetkin fikirləri ilə yaşadığı Gəncə şəhərində nüfuz qazanıb. Çox təəssüf edirəm ki, ilk gündən bizim YAP-dan olan gənc üzvümüz haqqında bilərəkdən, yaxud da bilməyərəkdən ajiotaj yaradıblar". A.Mirzəzadə bildirib ki, N.Həmzəyev demədiyi fikirlərə görə məsuliyyət daşımır: "Yeni Azərbaycan Partiyasının üzvləri həmişə tarixizə hörmətlə yanaşıb, tarixi şəxsiyyətlərin hörmətinin qorunmasının tərəfdarı olub. Bu məsələdə hər zaman digərlərinə nümunə göstəriblər. Mən hesab edirəm ki, bu, sadəcə, sensasiya xatirinə yaranmış insident idi və ona da cavab verildi".

❑ **Cavid TURAN**

# Cəmiyyət Türkiyə və Rəsulzadə sınağından üzüağ çıxdı

## **Pənah Hüseyn:** "Azərbaycan cəmiyyəti reaksiyasız olmadığını bir həftədə iki dəfə nümayiş etdirdi"

**Türkiyə ilə Rusiya arasında son günlər yaşanan gərginliyə münasibətdə Azərbaycan cəmiyyəti birmənalı olaraq Türkiyəni müdafiə etdi. Məhəmməd Əmin Rəsulzadənin bir deputat tərəfindən təhqir olunmasına da xalq kəskin reaksiya verdi. Bu, bir həftə ərzində Azərbaycan cəmiyyətinin iki testdən uğurla çıxması kimi qiymətləndirilir. Hər iki məsələ cəmiyyət üçün bir test sayıla bilərdi. Cəmiyyət öz reaksiyası ilə ümummilli maraqlar ətrafında özünü sipər etməyə hazır olduğunu nümayiş etdirə bildi.**



Bu barədə danışan **Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** bildirdi ki, Türkiyə və bu ölkənin türk milləti rəsmən xarici dövlət və xalq sayılsa da onlar Azərbaycan xalqının şüurunda ayrı dövlət, ayrı millət kimi formalaşmayıb. Azərbaycan xalqı Türkiyəni və türk xalqını özü hesab edir. O baxımdan Türkiyəyə olan müdaxilə Azərbaycana olan hücum kimi qarşılanır. Ona görə də Türkiyə məsələsində Azərbaycanda ümummilli birliyin nümayiş etdirilməsi gözlənilən dir, təbiidir: "Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri Türkiyəyə münasibətdə eyni mövqedədir. Rusiya ilə Türkiyə arasında yaşanan gərginlik Azərbaycan xalqının Türkiyəyə necə yanaşdığını aydın şəkildə ortaya çıxardı. Bu münasibət qürurvericidir.

Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan xalqının qəlbində hansı uca yerdə olmasını isə son iki gündə baş verən olayda bir daha görə bildik. Azərbaycanın Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə simvoldur. Bunu son iki gündə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən ortaya qoyulan mövqe bir daha nümayiş etdirmiş oldu. Rəsulzadəyə hücumu Azərbaycan cəmiyyəti, hər bir fərd özünə olan hücum kimi qəbul edir. Cəmiyyətin göstərdiyi təpki də bunlarla əlaqədardır".

**P.Hüseynin sözlərinə görə, həm Türkiyəyə dəstək, həm də Rəsulzadənin ictimai müdafiəsi onu göstərdi ki, ciddi problemlərə baxmayaraq Azərbaycan cəmiyyətinin strateji inkişafı prosesi milli dəyərlər, doğru dəyərlər üzərində gedir:** "Azərbaycan cəmiyyəti ümummilli məsələdə vahid mövqeyə qısa müddətdə gələ bilir. Hər kəs bundan bir nəticə çıxarmalıdır.

Bəziləri xalqla bağlı pessimizmə yuvarlanaraq iddia edirlər ki, Azərbaycan cəmiyyəti reaksiyasız, laqeyd cəmiyyətə çevrilib. Türkiyə və Məhəmməd Əmin Rəsulzadə məsələsində cəmiyyətin ortaya qoyduğu mövqe heç də belə olmadığını sübuta yetirdi. Bir həftədə iki dəfə bəlli oldu ki, Azərbaycan cəmiyyəti reaksiyasız cəmiyyət deyil, Azərbaycan xalqı heç də hər şeyə susan, laqeyd qalan xalq deyil. Mən builki seçkilərdə də gördüm ki, cəmiyyət heç də yatmayıb. Cəmiyyətdə güclü enerji toplanıb. Lazımi anlarda bu enerji özünü göstərir və göstərəcək. Son bir ildə Azərbaycan ictimai siyasi fikrində milli həmrəylik ideyası ciddi şəkildə gündəmə gəlib. Həm Türkiyə, həm də Rəsulzadə məsələsi ümummilli dəyərlər, ümummilli maraqlar ətrafında cəmiyyətin birləşməsi və ortaya mövqe qoymasının mümkünlüyünün bir sübutu, testidir. Azərbaycanın belə bir ciddi həmrəyliyə ehtiyacı var".

❑ **Etibar SEYİDAĞA**

# "Prezidentə xəyanət edənlərdən biri də bu olacaq"

## Firudin Cəlilov Naqif Həmzəyevə sərt cavab verdi



Firudin Cəlilov

**Gəncədən yeni seçilmiş deputat Naqif Həmzəyevin Məhəmməd Əmin Rəsulzadəni aşağılamasına sabiq təhsil naziri Firudin Cəlilov ölkə.az-a verdiyi açıqlamasında münasibət bildirib. O deyib:**

"Belə bir adamın parlamentə gəlməsi özü xoşagəlməz hadisədir. Bu adam hələ bilmir ki, indiki, özünün oturduğu parlament Məhəmməd Əmin Rəsulzadə qurduğu parlamentin varisidir. Dövlətin qurucusuna, milli liderə o cür yanaşan adamın parlamentdə nə işi var? Onu parlamentə aparanlardadı günah. Bu adamın nə tarixdən savadı var, nə də milli mənliyi var. Adi orta məktəb şagirdlərinin bildiyi məsələlərdən belə danışırsa, vay bizim halımıza, görün deputatımız kimdir. Onu elə bir günə qoymaq lazımdır ki, bir də elə danışmasın".

Sabiq nazir moderator.az-a açıqlamasında həmçinin qeyd edib ki, Rəsulzadənin qurduğu ölkədə və ya parlamentdə oturub onu təhqir etmək yaramazlıq və mədəniyyətsizlikdir: "Bu gün M.Ə.Rəsulzadəni təhqir edən sabah dövlətini, xalqını və vətənini təhqir edib alçaldar. Belələri vətənlərini satanlardır. Necə olur ki, bu cür qabiliyyətsiz, öz ölkəsinin tarixini bilməyən insanlar parlamentə düşür. Belə insanlara qapı açıb onları irəli çəkmək olmaz. İndi deputatdır. Sabah da qərar verib, onu daha yüksək vəzifəyə çəkəcəklər ki, o da ölkəni içdən parçalamağa cəhd edəcək. Necə ki, hazırda bu hala şahidlik edirik. Prezidentin inanıb etibar etdiyi şəxslər ona xəyanət edir. Həmin xəyanətkardan biri də bu olacaq".

Millət vəkili Fazil Mustafa isə qeyd edib ki, Rəsulzadə haqqında bu cür danışmaq ən azı tərbiyədən kənar bir işdir: "Bu, vaxtilə Heydər Əliyevin və sonradan cənab prezident İlham Əliyevin Rəsulzadəyə verdiyi qiymətə qarşı çıxmaqdır. Hər bir halda yolverilməzdir. Bunu kimin deməyindən asılı olmayaraq, mətbuatda və ictimai qınağa çevirmək lazımdır. Bu dövlətin qurucusuna belə hörmətsiz davranmaq olmaz. Əgər kimsə öz ailəsinə sahib çıxa bilmirsə, bunu Rəsulzadənin üzərinə yıxmasın. Rəsulzadə öz ailəsinə də, Azərbaycana da sahib çıxıb. Onun öz ailəsi güllələnibdir. Görəsən, Rəsulzadənin başına gətirilən müsibətlər bunu deyən insanın başına gətirilsəydi, dözə bilərdi? 17 yaşlı oğlunu güllələyiblər. Qızını, həyat yoldaşını, bütün ailəsini sürgün ediblər. Rəsulzadə imperiyanın əlindən ailəsini alıb apara bilərdi? Bunu kəskin qınayıram. Kimin deməsindən asılı olmayaraq mən öz sözümü deyəcəyəm. Bu, tərbiyəyə aid olmayan bir yanaşmadır".

# Rəsulzadəni təhqir edən deputata qarşı imzatoplama kampaniyası başladıldı

## "Onun mandatının alınmasını tələb etməyin tərəfdarıyıq"

**YAP-ın Gəncə təşkilatının sədri və yeni deputatı Naqif Həmzəyev Şərqdə ilk cümhuriyyətin banisini təhqir edən ifadələr işlədib. O, M.Ə.Rəsulzadəni "satqın", "xain" adlandırıb.**

Deputatın bu açıqlamaları onun sərt tənqid edilməsi ilə nəticələndi. Gəncənin deputatı Naqif Həmzəyevin dövlətimizin qurucularının lideri Məhəmməd Əmin Rəsulzadə barədə səsləndirdiyi yolverilməz ifadələrə ictimaiyyətin sərt reaksiyası hələ də davam edir.

İlk olaraq mediada bu hadisə geniş işıqlandırıldı. Sosial şəbəkələrdə hər kəs deputatı ən sərt formada tənqid etdi. Daha sonra **Məhəmməd Əmin Rəsulzadənin** nəvəsi Rəis Rəsulzadə yeni deputatın açıqlamasına kəskin münasibət bildirdi.

**O, deputatla məhkəmədə görüşəcəyini deyib:** "Dediyi sözlərin hamısı onun özünə aiddir. Belə fikir səsləndirməsi həmin adamın tarixi bilməməsindən irəli gəlir. Təəssüf edirəm ki, belə savadsızlar deputat seçilib. O, Məhəmməd Əmin Rəsulzadəni təhqir edibsə, məhkəmədə cavab verməli olacaq".

**Bunun ardından isə Milliyyətçi Gənclər Təşkilatının üzvləri sosial şəbəkə üzərindən bəyanat yayaraq, deputatın əleyhinə imzatoplama kampaniyasına başladıqlarını elan ediblər:** "Azərbaycan Cümhuriyyətinin qurucusu öndər M.Ə.Rəsulzadənin nəvəsi, əməkdar rəssam Rəis Rəsulzadə M.Ə.Rəsulzadəni təhqir edən "millət vəkilini" məhkəməyə verəcəyini bildirib. Biz milliyyətçi hərəkat, Milliyyətçi Gənclər Təşkilatı olaraq, məhkəmədən həmin "millət vəkili"nə ciddi bir cəza veriləcəyinə inanmırıq. Amma biz milliyyətçi kəsim olaraq həmin "millət vəkili"nin səlahiyyətlərinin alınmasını tələb etməyin tərəfdarıyıq.

Həmin şəxsin "millət vəkili" səlahiyyətlərinin geri alınması üçün milliyyətçi hərəkat, Milliyyətçi Gənclər Təşkilatı olaraq imzatoplama kampaniyasına start vermək qərarına gəldik. 100 min imza toplayıb, bütün lazımi orqanlara müraciət edəcəyik. İmzatoplama kampaniyasında könüllü iştirak etmək istəyənlər bizimlə əlaqə saxlaya bilərlər".

❑ **Məhəmməd TÜRKMƏN**

YENİ MÜSAVAT
N 269 (6297) 3 dekabr 2015

# Avropa Birliyindən Türkiyəyə yunan Kipri tələsi?!

## Şahin Cəfərli: “Hər AB üzvü kimi, Kipr yunanlarının da AB-nin istənilən qərarına veto qoymaq hüququ var”

**Türkiyə- Avropa Birliyi münasibətlərində yeni dönəmin başlaması, soyuq münasibətlərin yerini normal əlaqələrin tutması Ankaranın birmənalı şəkildə diplomatik uğuru kimi qəbul edilir. Lakin noyabrın 29-da Brüssel şəhərində keçirilən ikitərəfli danışıqlarda əldə olunan müsbət nəticələrə fərqli prizmadan yanaşanlar da var.**

Qeyd edək ki, əldə olunan razılığa əsasən, Türkiyə Avropa Birliyi qarşısında götürdüyü öhdəlikləri yerinə yetirərsə, 2016-cı ilin oktyabr ayından etibarən bu ölkə ilə AB arasında vizasız rejim tətbiq ediləcək. Bundan əlavə, Türkiyə ilə AB arasında daha 3 məsələ öz həllini tapıb. Tərəflər arasında əldə edilən razılıqlar aşağıdakı kimidir:

**1.** Avropa Birliyi qaçqınların vəziyyəti ilə bağlı edilən yardımları nəzərdən keçirəcək.

**2.** Türkiyə burada yaşayacaq suriyalı qaçqınların işlə təmin edilməsi ilə bağlı qanunvericilik aktlarında dəyişiklik edəcək. Hər il Avropa Birliyi ilə Türkiyə arasında bir toplantı keçiriləcək.

**3.** İl ərzində 2 sammit keçiriləcək. Türkiyəyə Suriya qaçqınları ilə bağlı problemi qarşılamaq üçün 3 milyard avro yardım da göstəriləcək.

Lakin AB heç də Türkiyəyə qapılarını taybatay açmaq, onu sıralarına qəbul etmək fikrində olmadığını xatırlatdığı şərtlərlə də isbatlayıb. Belə ki, Ankaranın qarşısında qoyulan şərtlər yerində qalır və bu sırada xüsusilə də yunan Kipri ilə bağlı irəli sürülən maddə Ankara üçün qəbuledilməz sayılır. Hesab olunur ki, Türkiyənin illərdən bəri təpkilərə rəğmən qəbul etmədiyi təklifləri yenidən masa üzərinə çıxarmaqla AB əslində Ankaranı çətin durumla üz-üzə qoyub və bu mənada mövcud durumla bağlı eyforiyaya qapılmağa dəyməz.

Bu arada MHP-nin Kayseridən olan millət vəkili Yusif Halacoğlu İngiltərə arxivindən əldə etdiyi xəritəni yenidən sosial mediada paylaşıb. Millət vəkili “ABŞ-la Rusiya arasında kürd dövlətinin qurulması layihəsi 100 illikdir. Tarix boyunca dost olmayanlarla yola çıxarsınızsa, başınız ağrıyar. Bu, yeni bir xaçlı səfər deyilmi” - deyə bildirib. Y.Halacoğlu Türkiyəyə dost olmayanlar sırasında adlar çəkib. Bu sıraya İngiltərə, Rusiya, Fransa, İtaliya, Yunanıstan və Ermənistanın adları daxildir. Bir il əvvəl bu barədə Məclisdə çıxış etdiyini deyən millət vəkili “o gündən dəyişən bir şey yoxdur” əlavəsini edib. MHP üzvü Suriya qaçqınları üçün AB-nin Türkiyəyə 3 milyard avro vəsait ayırmasına da təpkili reaksiya verib, qeyd edib ki, bu, heç Türkiyənin indiyə qədər Suriya qaçqınları üçün ayırdığı xərclərə adekvat deyil.



Şahin Cəfərli

**Politoloq Şahin Cəfərli hesab edir ki, Avropa Birliyinin (AB) Türkiyə ilə viza rejiminin ləğvi üçün Ankaranın qarşısında çoxsaylı şərtlər qoymasını təbii qarşılamaq lazımdır:** “Bu şərtlər AB məkanının təhlükəsizliyini, rifahını, eyni zamanda birlik daxilində qarşılıqlı anlayış və vahid siyasi kursu qorumağa yönəlib. Şərtlər arasında Türkiyənin bütün AB ölkələrinin, o cümlədən yunan Kiprinin vətəndaşlarına vizasız gediş-gəliş hüququ verməsi də var. Bu şərtin Türkiyə üçün alçaldıcı olduğu yönündəki fikirlərlə razı deyiləm. Çünki AB Türkiyəyə tətbiq etdiyi viza rejimini aradan götürürsə, aydındır ki, Türkiyə tərəfi də öz növbəsində analoji addım atmalıdır. Ümumiyyətlə, Türkiyə əgər Avropa Birliyinə tamhüquqlu üzv olmaq istəyirsə, yunan Kipri ilə münasibətlərini normallaşdırmaq məcburiyyətindədir. Çünki hər AB üzvü kimi, Kipr yunanlarının da AB-nin istənilən qərarına veto qoymaq hüququ var”. **Ş.Cəfərli xatırlatdı ki, hazırda ABŞ-Türkiyə müzakirə prosesində məhz Kiprin vetosu ilə əlaqədar bir çox müzakirə fəsli açılmayıb və donmuş vəziyyətdə qalıb:** “Bu problemin həlli üçün Türkiyə ilə Kipr arasında yumşalmanın baş verməsi və hansısa səviyyədə əməkdaşlıq qurulması zəruridir”.

**“Yavru Vətən”in, Quzey Kipr Türk Cümhuriyyətinin Ankaranın addımını necə qarşılayacağına gəldikdə, politoloq burada ciddi problem görmür:** “Onu da nəzərə almaq lazımdır ki, Kipr türkləri də Türkiyə-AB yaxınlaşmasından məmnundur. Mustafa Akıncının prezident seçilməsindən sonra yunan tərəfi ilə dialoq intensivləşib və danışıqlarda müəyyən irəliləyiş də əldə olunub. Kipr türklərinin əksəriyyəti adanın hər iki hissəsinin federativ əsasda vahid dövlət şəklində birləşməsini arzulayır və bu iradəsini 2004-cü il referendumunda Annan planına ”hə” deyərək ortaya qoyub. Böyük ehtimalla gələcəkdə Kipr yenidən birləşəcək. Yəni demək istədiyim odur ki, hazırda tendensiya sülhə, inteqrasiyaya doğrudur, tərəflər konfrontasiyanı geridə buraxmaq istəyir. Ona görə də Türkiyə-AB yaxınlaşmasının paralel şəkildə Kipr məsələsinin həllinə də müsbət təsir göstərəcəyini söyləmək olar. AB ilə Türkiyə arasında viza rejiminin anlaşmada göstərildiyi kimi, 2016-cı ilin oktyabrında ləğv olunub-olunmayacağına gəldikdə isə bu haqda indidən birmənalı rəy bildirmək çətindir". **Ş.Cəfərli bildirdi ki, Türkiyə öhdəliklərini 2016-cı ilin iyuluna qədər yerinə yetirməlidir:** “Bundan sonra Avropa Birliyi Şurası 3 ay ərzində bununla bağlı monitorinq aparıb, yekun qərar qəbul etməlidir. Avropa mediasında belə fikirlər var ki, 2017-ci ildə Almaniya və Fransada keçiriləcək parlament seçkiləri ərəfəsində Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvi elə də asan olmayacaq. Bu ölkələrin ictimaiyyəti və siyasi partiyalarının əksəriyyəti Türkiyənin AB-yə inteqrasiyasına elə də isti baxmır. Türkiyə mövzusunun həmin ölkələrdə seçkiqabağı diskussiya mövzularından biri olacağı şübhəsizdir. Bu diskussiyaların viza məsələsinə mənfi təsir etməsi ehtimalı var, amma düşünürəm ki, Türkiyə bütün şərtləri yerinə yetirəcəyi təqdirdə, ona ”yox" demək mümkün olmayacaq. Türkiyənin AB-yə tamhüquqlu üzv qəbul olunmasına gəlincə isə bu, yaxın perspektivin işi deyil".

**Ekspert bir məqamı da xüsusi qeyd etdi:** “Türkiyə bu prosesin sonunda hazırda viza tələb etmədiyi xarici ölkə vətəndaşlarına yenidən viza rejimi tətbiq edə bilər. Yəni tutaq ki, Avropa Birliyi Türkiyədən Azərbaycana yenidən viza tətbiq etməsini istəsə, Ankara buna getməyə məcburdur. Amma ehtimal var ki, bu şərt Azərbaycana yox, Türkiyənin hazırda viza tələb etmədiyi ərəb dövlətlərinə və digər böyük müsəlman ölkələrinə şamil olunacaq”.

❑ **E.PAŞASOY**

# Əgər güclü olsaq...



**Hüseynbala SƏLİMOV**

**Bəlkə də bu iki problem arasında əlaqə tapmaq üçün çox düşünmək lazımdır.**

Bəlkə də belə əlaqə heç yoxdur. Amma Rusiya mətbuatı vurulmuş təyyarə ilə Qarabağ problemi arasında necəsə əlaqə gördü...

Bəlkə də onları bu fikrə salan odur ki, Türkiyə bir növ qırmızı xətti keçib və Rusiya təyyarəsini vurmağa cəsarət edib. Əgər Türkiyə bunu Suriya yaxınlığında edibsə, niyə də Qarabağda etməsin? Bir daha deyirik ki, bu bizim rusiyalı təhlilçilərin məntiqidir...

Təbii ki, prosesin sonunun necə olacağını demək çətin olsa da, Rusiya təyyarəsini vurmaq bir az cəsarət tələb edirdi. Türkiyə bunu etdi. Öz hərəkəti ilə sübut etdi ki, Rusiyadan, onun hərbi gücündən heç də çəkinmir...

Rusiya bir növ eyforik durumda idi. Xəzərdən Suriyaya tuşlanan raketlər elə sözün əsl mənasında onun başını gicəlləndirmişdi... Təyyarənin vurulması bu ölkə üçün bir növ “soyuq vanna” oldu...

İndi rusiyalı radikallar nələri təklif etmirlər?!. Hətta deyirlər ki, Ermənistanla Rusiya sərhədinə qoşun toplmaq lazımdır!..

Mən hətta onların saytından belə bir xəbər oxudum ki, dekabrın 3-də Türkiyənin baş naziri Ə.Davudoğlunun Azərbaycana səfəri gözlənir. Bəlkə də bu, nəzakət xarakterli bir səfərdir - Türkiyənin baş naziri özünün ilk xarici səfərini Azərbaycana etmək istəyir. Di gəl, Rusiya mətbuatı bu səfərdə də hansısa məqamlar arayır. Onları xüsusən də bir fikir həddindən çox məşğul edir. Guya bu yaxınlarda Ə.Davudoğolu belə bir bəyanat veribmiş ki, Qarabağ problemi nəyin bahasına olursa-olsun həll edilməlidir...

Doğrusu, mən bilmirəm, Ə.Davudoğlu belə bir bəyanat verirb, ya yox? Əgər o belə bir söz deyibsə, buna görə ona yalnız minnətdar olmağa dəyər...

Əsas odur ki, Rusiyadakı indiki təlaşdan çox asanlıqla onların kimin yanında olmasını sezmək mümkündür...

Amma nə etmək olar? Rəsmi Bakı Rusiya ilə əlaqələrə çox önəm verir. Olsun.

Əgər nə vaxtsa Rusiyanın Qarabağ problemində heç olmasa, neytral olduğunu görsək, bəlkə də onda bu siyasəti yetərincə dəyərləndirəcəyik. Amma hələ ki, belə bir neytrallıq yoxdur...

İnsafən demək lazımdır ki, Bakı Türkiyəyə də biganə deyil: dərhal Türkiyə ilə Rusiya arasında vasitəçilik etmək təklif olundu, Gürcüstanla Rusiyanın sərhədində bu günə qədər toplanıb qalmış maşınlar Xəzər vasitəsilə Mərkəzi Asiyaya yola salındı... Təbii ki, bunların hamısı xoş məramlı jestlərdir...

O ki qaldı bizim Qarabağ probleminə, bu ay ərzində prezidentlərin görüşü olmalıdır. Hələlik bu görüşə əlamətdar məzmun verə bilən bir hadisə olmayıb. Ona görə də görüşlə bağlı elə də optimist deyilik...

Əsas nədir? Odur ki, Azərbaycanla Türkiyə güclənsin. Bir az əvvəldə dedik ki, Rusiya təyyarəsilə baş verən insident istər-istəməz Türkiyənin artan gücünə və nüfuzuna dəlalət edə bilər. Təbii ki, biz də bu fikirdəyik ki, paraşüt vasitəsilə enən pilotlara atəş açmaq lazım deyildi. Belə olsaydı bu, daha alicənab bir davranış olardı. Amma nə etmək olar? Rusiyada da başa düşməli və razılaşmalıdırlar ki, bölgədə müharibə gedir, müharibədə isə əsgərlər ölür...

İndi Rusiya heç bir vəchlə bunu qəbul etmək istəmir: Putin Ərdoğanla görüşdən imtina etdi, Türkiyəyə qarşı ilk sanksiyaların siyahısını təsiq etdi və prosesin hələ bitmədiyini dedi...

Təəssüf doğuran budur ki, ölkə küçə və meydan radikallarının məntiqilə idarə olunur. Hətta hökumətin bəzi üzvləri belə Türkiyəyə qarşı çox sərt sanksiyalar tətbiq etməyin tərəfdarı deyillər, çünki bu ölkə Rusiyanın ticarət dövriyyəsində ilk iki yerlərdən birini tutur. Həm də Rusiyanın özü sanksiyaya məruz qalıb. Bu günlərdə bir siyasi təhlilçi çox maraqlı şey yazmışdı. Bəli, o, diqqəti belə bir detala yönəltməyə çalışmışdı ki, Rusiya hökuməti təkcə Suriyanın səmasını təmizləmədi, həm də ölkəsinin dükanlarının piştaxtalarını və virinlərini silib-süpürdü...

Təyyarənin vurulması həm də bir işarə idi. Rusiyaya demək istədilər ki, onun Suriyadakı fəaliyyəti digərləri tərəfindən o qədər də təqdir olunmur. Rusiyada bunu başa düşdülərmi? Bilmirəm...

O ki qaldı Azərbaycana, biz də güclənməliyik. Dünya güclə hesablaşır. Bunu biz daxili siyasətdə daha çox dərk edirik, nəinki xarici siyasətdə...

Ona görə də güclənməyimizə və Türkiyə ilə bir olmağımıza ehtiyac var. Əgər həm hərbi, həm siyasi və həm də diplomatik sarıdan güclü olsaq, bizimlə hesablaşmalı olacaqlar. Bunun üçünsə bir daha deyirik ki, güclülərin klubunda olmaq gərək...



# Tayanın başındakı vətəndaş

Zamin HACI
zaminhaci@gmail.com

**Köhnə-təzə deputatxanamız siftəsini vətəndaşlıq haqda qanuna dəyişiklik etməklə başlayır. Necə deyərlər, siftəni korlamaq istəmirlər. Yapistlər hakimiyyətə gələndən bəri Azərbaycanda əsas fəaliyyət istiqamətləri vətəndaşlığın bir institut, anlayış, dəyər olaraq məhvindən ibarət olmuşdur. Prinsipcə, avtoritar rejim üçün düzgün istiqamətdir - vətəndaş olmayandan sonra, vətəni istədiyin qədər çalıb-çaparsan. Kim mane olacaq? Üstəlik, "vətən daşı", "vətəndaş mamırı" mövzularında şeir qayıran insanların təpəsindən oğul-uşaqlarına, nəvə-nəticələrinə, kötücə və yadıcalarına bəs edəcək qədər pul tökürsən, onlar da özləri üçün buğlana-buğlana yaşayırlar. Vətəndaşın canı cəhənnəmə. Özü-özünə gün ağlamayan vətəndaşa sən niyə gün ağlayasan? Üstəlik, ortada el üçün ağlayan gözün perspektivləri haqda Səhiyyə Nazirliyi tərəfindən təsdiqlənmiş konkret diaqnoz vardır.**

Uzun sözün qısası, deputatxana vətəndaşlıq haqda qanunda qalan son salamat yeri də dəyişəcək: indən belə terrorçular, xaricdə din oxumaq adıyla gedib hərbi təlim keçənlər, konstitusiya quruluşumuzu zorla dəyişdirmək istəyənlər və sairə - prinsipcə, orda hər birimizin adını yazmağa yerlər, qrafalar saxlanılsa daha məqsədəuyğundur - Azərbaycan Respublikasının vətəndaşlığından məhrum ediləcəkdir.

Məncə, bu, bir az gülünc qanun olacaq, bəlkə deputatxana kimi ciddi yer üçün də həddi aşmaqdır. İlk növbədə ona görə ki, tutalım (həm də adamı tutmaq mənasında) bir şəxs terrorçudur, bunu vətəndaşlıqdan çıxarıb neyləyəcəyik? "Başqa ölkəyə verəcəyik" deyirlərsə, o zaman təklif edirəm deputatxana üzvləri azərbaycanlı terrorçuları sevərək, qucaq açaraq vətəndaşlığa götürmək istəyən o sarsaq dövlətlərin adlarını indidən açıqlasın.

Ola bilər kimsə İŞİD-ə qoşulsun, sonra Bakıya gələndə şanlı polisimiz bunu tutub təzədən təyyarə ilə Raqqa şəhərinə atsın. Yaxud nardaranlıları İrana qovmaq mümkündür. Ağlıma ayrı mexanizm gəlmir.

Eyni zamanda bu əcaib dəyişikliyi hazırlayanlar Azərbaycanın da imzaladığı çox önəmli bir sənədi yaddan çıxarıblar. BMT İnsan Haqları Bəyannaməsinin 15-ci maddəsi məhz bu vətəndaşlıq məsələsinə həsr olunub: "Hər bir şəxs vətəndaşlıq hüququna malikdir. Heç kim özbaşına olaraq vətəndaşlıqdan və vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz". Əlbəttə, bunun da çarəsi var - gərək Azərbaycan beynəlxalq hüququn üstünlüyü haqda qərarından imtina eləsin. Örnək üçün - bizim ayrı hardan öyrənəcəyimiz var ki - bugünlərdə Rusiya deputatxanası *(Duma adlanır - guya çox ağıllı, fikir-düşüncəli məxluqlar toplaşıb orda)* belə bir qanun qayırıbdır. Daha beynəlxalq konvensiya və qanunlar Rusiya ərazisində keçərli sayılmır. Əsas Putinin əmrləridir. Biz də elə bir qanun qayırsaq müxalifətçilərin Avropa Məhkəməsinə müraciət eləyib hökumətdən qəpik-quruş udması kimi zərərli praktikalara son qoyular. Nəyə lazımdır riyakarlıq? Biz gərək öz suveren yolumuzla iri addımlarla irəliləyək. Brejnev demişkən.

Çoxlu azərbaycanlını vətəndaşlıqdan çıxarmağın müsbət tərəflərindən biri də odur ki, qarşıdan gələn neftsiz, böhranlı günlərdə yemək istəyən ağızların sayı azalar. Gördün manat devalvasiya edir, 100 min vətəndaşı çıxart. Gördün hava soyudu, "otopleniyaya" qaz verməyin nə mənası var? İstilik sistemi olan bütün binaların sakinlərini qovursan ölkədən, vəssalam. Məşhur ağsaqqalın lətifəsindəki kimi.

Bir nəfər taya yığır, taya qalxır, qalır yuxarıda, düşə bilmir. Gedirlər ağsaqqalı çağırırlar, deyir buna bir uzun ip atın. İpi atırlar. Tayanın başındakı bədbəxtə deyir ki, indi ipi bağla belinə. Bədbəxt bağlayır. Deyir indi ipi dartın. Dartırlar, adam düşüb "vətəndaşlıqdan çıxır" - ölür. Ölənin arvad-uşağı ağlaşır, deyirlər, ağsaqqal, bu nə iş idi, niyə öldü bu, ağsaqqal təəccüblə başını qaşıyır: "Vallah, heç özüm də bilmədim niyə öldü. Çünki bu üsulla quyudan o qədər adam çıxartmışam ki..."

Sözgəlişi, Nardaranı da tayadan eləcə düşürdülər.




**Türkiyənin baş naziri Əhməd Davudoğlu bu gün Bakıya gəlir. Səfər çərçivəsində o, Azərbaycanda ən yüksək səviyyədə görüşlər keçirəcək, o cümlədən prezident İlham Əliyev tərəfindən qəbul ediləcək.**

# Türkiyənin baş naziri Bakıya mühüm mesajlarla gəlir

## Bu gün Əhməd Davudoğlunun Azərbaycana kritik səfəri başlayır; ziyarət mürəkkəb bir dönəmə təsadüf edir və Bakı-Moskva münasibətlərinə də təsirsiz ötüşməyə bilər; gözlər Bakıda...

Onun ölkəmizə budəfəki ziyarəti əvvəlkilərdən bir neçə özəlliyi ilə fərqlənir və təkcə 1 noyabr seçkilərindən, bu posta təzədən təsdiqlənməsindən sonra ənənəyə uyğun surətdə, Şimali Kiprin ardınca ikinci xarici səfər qismində Azərbaycanı seçməsi ilə ilgili deyil; daha diqqətçəkici məsələlər var.

Səfərin əhəmiyyətini eslində onun reallaşdığı ərəfədə bölgədə, Türkiyə-Rusiya münasibətlərində formalaşan yetərincə mürəkkəb və həssas situasiyadan, tərəflər arasında başlamaqda olan iqtisadi müharibədən və gedən informasiya savaşından aydın görmək olar. Bu xüsusda Davudoğlunun xarici işlər naziri Mövlud Çavuşoğlundan cəmi 4-5 gün sonra Bakıya təşrif buyurması təsadüfi sayıla bilməz.

Söhbət öncəliklə Rusiyanın "Su-24" bombardmançı təyyarəsinin Türkiyə tərəfindən vurulmasının ardınca Ankara-Moskva münasibətlərində sonuncunun günahı üzündən yaranan böyük çat və gərginlikdən, habelə bu gərginliyin Türkiyə və Rusiya ilə yaxın əlaqələrə malik Azərbaycanın hər iki dövlətlə münasibətlərinə inikas etməsindən gedir.

Yada salaq ki, Əhməd Davudoğlu "Su-24"ün məhv edilməsinə göstərişi şəxsən verib və gərək olarsa, yenə eyni addımın atılacağını söyləyib. Bakı səfəri ərəfəsində isə o, prinsipial mövqeyini təkrarlayıb. Eyni zamanda ikitərəfli əlaqələrin normallaşması naminə Kremlə tövsiyə edib ki, "Su-24" olayını düzgün dəyərləndirsin. "Yalnız o zaman hər iki tərəf üçün faydalı olar" - qeyd edib baş nazir.

**Sitat:** "Olduqca gərgin dönəmdəyik. Ancaq gərginliyi Türkiyə tərəfi başlamayıb. Biz öz hava məkanımızı qorumaq istədik. Həmin təyyarənin hansı ölkəyə aid olmasını əvvəlcədən bilməmişik. Əgər Türkiyə Silahlı Qüvvələri qırıcını vurmasaydı, bəzi dairələr bunun səbəbini soruşardılar. Biz hava məkanımızın pozulması ilə bağlı qarşı tərəfə dəfələrlə xəbərdarlıq etdik. Eyni zamanda Rusiyaya bildirdik ki, Bayırbucaq bölgəsində terrorçu yoxdur orada türkmanlar var".

***

Səfər sübhə yox ki, ən əvvəl bu məqamları ilə, hörmətli Əhməd Davudoğlunun Rusiyadan ötrü çox önəmli bir persona olması və onun iki ölkə arasında pik həddə çatmaq üzrə olan gərginlikdən dolayı Bakıda hansı bəyanatlar verməsi baxımından Rusiya və dünyanın diqqət mərkəzində olacaq. Bir şey dəqiqdir ki, baş nazir ölkəmizə Türkiyənin Rusiya önündə güclü və prinsipial mövqeyi ilə gəlir ki, bu da ziyarətin önəminə məxsusi siyasi çalar qatır.

Səfər öncəsi situasiyanın ciddiliyinə və təhlükəliliyinə dəlalət edən detallardan biri isə Rusiyanın insidentdən az sonra Ermənistan-Türkiyə sərhədinə təcili şəkildə seçmə, iri qoşun qruplaşması göndərməsi sayıla bilər. Belə bir sensasion məlumat bir sıra Rusiya nəşrlərində yer alıb.

Məlumatlara əsasən, prezident Putin ötən bazar günü - noyabrın 29-da səhər Şimali Qafqaz hərbi dairəsində dislokasiya olunmuş 58-ci orduya Türkiyə-Ermənistan sərhədində dərhal radioelektron mübarizə qüvvələrinin seçmə polklarını və briqadalarını, zenit sistemlərini, reaktiv yaylım atəşi sistemlərini, tank əleyhinə kompleksləri, motoatıcı və artilleriya qoşunlarını cəmləşdirmək haqda təcili əmr verib.

Söhbət üst-üstə 7 minlik qoşun qruplaşmasından gedir. Məlumatın mənbəyi kimi Rusiya Müdafiə Nazirliyinin məruzəsi göstərilir. Belədirsə, bu, artıq Türkiyə ilə yanaşı, Azərbaycana münasibətdə də şimal qonşumuzun xoş olmayan məramına, yeni təhlükəli planları və hədələrinə dəlalət edir, çünki ölkəmiz Qarabağa görə on illərdir işğalçı Ermənistanla müharibə vəziyyətindədir. Əhməd Davudoğlunun Bakı səfiri həmçinin bu təhlükəli gəlişmə fonunda reallaşması ilə önəm kəsb edəcək.

***

Bu mənada qardaş ölkənin hökumət başçısının Bakıdan verəcəyi açıqlama və mesajlar ikiqat siyasi dəyər daşıyır. Həmin mesajların əsasən Rusiyaya, Ermənistana ünvanlı olmaqla Azərbaycanın təhlükəsizliyi məsələsini də özündə ehtiva edəcəyi şəksizdir. Zatən, Davudoğlu səfər ərəfəsi də Dağlıq Qarabağ kontekstində Azərbaycanın xeyrinə bəyanatlar səsləndirib, hətta Bakının xahişi ilə Ankaranın işğal altındakı ərazilərdə antiterror əməliyyatı keçirməyə hazır olması barədə Rusiya KİV-də sensasion məlumatlar yayılıb və Türkiyə tərəfindən təkzib edilməyib. Qarabağ məsələsində oxşar mövqenin məhz Bakıda ortaya qoyulması heç vaxt olmadığı qədər effekt yaradardı.

Sözsüz ki, baş nazirin ziyarəti hər şey qırağa, iki qardaş ölkə arasında strateji əməkdaşlığın, sarsılmaz ittifaqın yeni və növbəti fiksəsi, nümayişi olacaq - hansı ittifaq ki, Ermənistanı haqlı olaraq daim narahat edib, indi də Rusiya bəlli səbəbdən bu ittifaqa qarşı xeyli qıcıqlı görünür. Hər halda, bundan sonra Türkiyənin istənilən müttəfiqinin Rusiyanın gözündə rəqib kimi görünəcəyi ehtimalı artıb ki, azalmayıb.

Rəsmi Ankara Kremlin bu kimi həssaslığının, həmçinin də onun Azərbaycana real təsir imkanlarının fərqindədir və əlbəttə ki, onları ciddiyə alır. O üzdən Bakı görüşləri zamanı Türkiyə baş naziri Azərbaycan rəhbərliyindən güman ki, açıq dəstək bəyanatı istəməyəcək - yenə məhz Azərbaycanın milli və təhlükəsizlik maraqları ziyan görməsin deyə.

Ancaq bağlı qapılar arxasında yəqin ki, Bakı Türkiyənin yanında olduğuna dair mövqe sergiləyəcək, iki qardaş ölkə arasında əlaqələrin bütün strateji sahələr üzrə dərinləşdirilməsinin vacibliyi xüsusi vurğulanacaq, perspektivlərdən danışılacaq. Bundan əlavə, Rusiyanın iqtisadi embarqolarından dolayı Azərbaycanın qardaş ölkəyə edə biləcəyi köməyin dairəsi də böyük ehtimalla, müzakirə mövzusu olacaq. Bura Rusiyada yasaqlanan türk mal və xidmətləri üçün Azərbaycanda və ya Azərbaycan vasitəsilə qonşu ölkələrdə yeni bazarların tapılması, ən önəmlisi, Türkiyənin qaz təchizatının ölkəmiz hesabına gücləndirilməsi məsələləri də daxildir.

**Bütün hallarda bu gün Bakı kifayət qədər dünyanın nəzər-diqqətinə olacaq. Buna əsaslar da yetərlidir. İstisna deyil ki, Davudoğlunun kritik səfərindən sonra Rusiya-Türkiyə münasibətlərinin inkişaf vektorları daha da dəqiqləşsin - özü ilə bərabər Bakı-Moskva münasibətlərinə də bəzi korrektələr eləməklə.**

❑ **Siyasət şöbəsi**

# Milli Şura istintaqa cəlb olunur, yeni həbslər gözlənilir

**İqtidar Nardaran olaylarını öz xeyrinə çevirməyi və yekunlaşdırmağı bacardı. İlk baxışdan uğursuz görünən bir əməliyyat siyasi hakimiyyətin əl-qolunu açdı, illərlə paytaxtın 15 kilometrliyində ona problem olan bir kənd problem olmaqdan çıxdı.**



# Nardaran və sonrası... Azərbaycanda nələr olacaq

## Hacı Tale Bağırzadə Nardaran kəndini qırğına və əməliyyatlara meydan etdi; kəndə gizli gətirilən tərəfdarlar kimlər idi; Azərbaycan iqtidarı siyasi səhnədən yox, səhnə arxasından və öz daxilindən təhdid olunur...

Etiraf etmək lazımdır ki, Azərbaycan hakimiyyəti bu kəndə tam nəzarəti həyata keçirə bilmirdi - bunu təmin etmək də ancaq güc yolu ilə mümkün görünürdü. Güc işlətmək üçünsə əsaslar, ya da heç olmasa bəhanə lazım idi.

Hacı Tale və onun radikal çevrəsi hakimiyyətə belə bir əsası verdi. Həbsdən çıxandan bəri daim kəskin, hətta provokasiya xarakterli açıqlamalarla çıxış edən, bununla da iqtidardan narazı olan hər kəsin cazibə obyekti olmağa çalışan Hacı Tale, göstərdiyi bütün cəhdlərə baxmayaraq, yalnız iki istiqamətdən dəstək və himayə ala bildi. Onlardan biri vaxtilə Rusiyanın dəstəyi və ssenarisi ilə yaradılan Milli Şura, onun əsasını təşkil edən AXCP-dir. Bu qruplaşmanın, əsasən də AXCP-nin lider və fəalları eyni ilə Tale Bağırzadə kimi, reaksioner psixologiya daşıyan, avantürist və dağıdıcı xislətli insanlardan təşkil olunub. Onlar demokratiyanın İŞİD-çiləri hesab olunurlar; özləri kimi olmayanları bir qələmdə silməyə hazırdırlar. Və onlar üçün iqtidarı pafosla tənqid edən, təhqir edib söyən səfir Arif Məmmədov da dərhal idola çevrilir; dini ekstremizmin bariz nümunəsi olan Tale Bağırzadə də...

Hacı Taleyə dəstək verən digər istiqamət Nardaran kəndindəki İrana bağlı kiçik bir qrup idi. Dini mühiti yaxşı bilən "Yeni Müsavat" qəzetinə məlum olub ki, Azərbaycanda fəaliyyət göstərən əksər şiə-cəfəri icmaların rəhbərləri Hacı Talenin kənddəki məlum qrupla yaxınlaşmasında böyük təhlükə gördüklərini, bu gəncə üz verməyə ehtiyac olmadığını dəfələrlə kənd ağsaqqallarına çatdırıblar. Lakin Hacı Taleyə biət edən kiçik qrup kimsəni dinləmək niyyətində deyildi.

Hacı Talenin Milli Şura vasitəsilə siyasi dəstəyi, İranın müəyyən çevrələrindən maddi dəstəyi, Azərbaycanın fərqli bölgələrindəki tərəfdarları sayəsində, insani dəstəyi təmin edilmişdi. Nardaran kəndini özünə sığınacaq elan edən Hacı Tale bölgələrdəki tərəfdarlarını da gizli şəkildə kəndə toplamağa başladı. Kənddəki qaynaqlar qəzetimizə deyiblər ki, Nardaranda 26 noyabrda 6 nəfərin ölümü ilə nəticələnən əməliyyat əslində bu məxfi konsolidasiyanı dayandırmaq məqsədilə edilib. Lakin məhz kənardan kəndə gələnlərin müdaxiləsi ilə atışma düşüb, faciə baş verib. Təsadüfi deyil ki, Nardaranda atışma olur, lakin oradaca həlak olan 4 mülki vətəndaşdan ikisi *(daha bir nəfər sonradan aldığı yaradan dünyasını dəyişdi)* kənar bölgədən gələnlərdəndir. Sərvan Səfərov-Yevlaxdan, Abbas Hüseyn-Masallıdan. Daha sonra aparılan danışıqlar sayəsində, kəndə kənardan gələn Hacı Tale tərəfdarları 30 noyabr tarixində, gecə saatlarında yerli hakimiyyət qüvvələrinin ayırdığı 7 avtobusla kənddən çıxarılıb. Təxminən 250 nəfər! Kənd ağsaqqallarının yaxından dəstəyi ilə baş tutan və qan axmasının qarşısını alan bu prosesdən sonra 1 dekabr, səhər saatlarında kənddə xüsusi əməliyyat başlayıb.

Beləliklə, Hacı Tale Bağırzadə Nardaran düyününü həll etmək üçün bilərəkdən, ya da bilməyərəkdən, hakimiyyət üçün əsas yaratdı; proses müəyyən itkilərlə, demək olar ki, həll edildi.

Azərbaycan iqtidarı siyasi güc və tərəf olaraq, ölkənin siyasi müstəvisində rəqiblərindən xeyli üstün, çevik və hazırlıqlıdır. Ona müxalifəti təşkil edənlər, nə ayrı-ayrılıqda, nə də hamısı bir yerdə, onunla yarışa biləcək gücdə deyillər. Söhbət fiziki güclərin müqayisəsindən getmir - çeviklik, proseslərə adekvat münasibət, təkliflər paketi hazırlamaq, müəyyən kritik qərarlar qəbul etmək qabiliyyətlərindən gedir. Nardaran hadisələri də ortaya heç də xoş olmayan bir səhnə çıxartdı - Azərbaycanın siyasi müxalifəti hər hansı bir prosesə adekvat reaksiya , hətta bəyanat da verə bilmir. Bu baxımdan, iqtidarın siyasi səhnədən narahatçılığı yoxdur; lakin Azərbaycana daxildən və xaricdən yönələn təhdid və təhlükələr mövcuddur və bütün ciddiyyətini qoruyur. Hakimiyyətin öz içərisindəki güc mərkəzlərinin birinin ifşası ortaya ciddi və vahiməli bir mənzərə çıxartdı: bu iqtidarın öz daxilində onun özünə və bütövlükdə ölkəmizə qarşı ciddi təhdid təşkil edən qruplar varmış! Və onlar fərqli xarici qüvvələrə bağlıdırlar. Etiraf etmək lazımdır ki, prezident Əliyev risk alaraq, bu təhdidi qətiyyət və ardıcıllıqla aradan qaldırmaq prosesinə start verdi. MTN naziri Mahmudovun və onun dəstəsinin deşifrəsindən sonra iqtidara qarşı iç təhdid azaldıldı; digər güc mərkəzlərinə gözdağı verildi; ardınca isə "Nardaran olayları" şərti adı ilə kodlaşdırıla bilinəcək prosesə start verildi. Eksport ideologiyalar və qurumlara qarşı savaş başladıldı.

"Yeni Müsavat"a çatan bilgilərə görə, dini əsaslarla təşkilatlanmış və ölkə üçün təhdid təşkil edən digər icma və camaatlara qarşı da eyni proses başlayacaq. Azərbaycan iqtidarı Hacı Tale Bağırzadənin timsalında həyata keçirdiyi əməliyyatla uzun illər kontroluna ala bilmədiyi bir bölgəni nəzarətə götürdü; lakin bu sürəc heç də ölkədəki şiələrə qarşı əks münasibət hesab edilmədi. Hətta İran belə bir bəyanat vermədi; Hacı Talenin və Nardaranın arxasında durmadı, məsuliyyəti bölüşmədi; digər dini icmalar da heç bir həmrəylik nümayiş etdirmədilər; insan ölümlərindən başqa, əməliyyatda xüsusi pislədikləri məqam da olmadı. Yalnız Əli Kərimliyə bağlı olan media və siyasi təşkilatlar, fərdlər fərqləndilər. Lakin onların artıq hər hansı prosesə təsir gücü qalmayıb.

Bundan sonra nə olacaq? Azərbaycan iqtidarı cəmiyyət, dini icmalar və siyasi müxalifətlə necə rəftar edəcək?

"Yeni Müsavat"ın təhlilinə görə, iqtidar "hücumda oynamaqda" davam edəcək. Buna baxmayaraq, onsuz da zəifləmiş siyasi müxalifətə qarşı heç cəza tədbiri gözlənilmir. Lakin Milli Şura və AXCP istisnadır. Hacı Tale Bağırzadəyə yaxın olan bu qurum və onun rəhbərləri istintaqa cəlb oluna bilərlər.

Dini icmalarla bağlı, xüsusi ilə Azərbaycanda ənənəvi təriqətlərdən olan sünni və şiə icmalarına qarşı xüsusi əməliyyatlar gözlənilmir. Lakin Tale Bağırzadənin kənardan aldığı maddi dəstəklə qurduğu "Müsəlman Birliyi" hörgütü tamamilə deşifrə edilərək, sıradan çıxarılacaq. Həyata keçirilən intensiv həbslər də bunu təsdiq edir.

İqtidar öz içindəki təmizləmələri isə davam etdirəcək. Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan hakimiyyətini və onun gələcəyini təhdid edən ən böyük təhlükə məhz daxili dönüklər və mənfəət qruplarıdır. Prezident Əliyevin özünün də anons etdiyi kimi, bütün dövlət strukturlarını ASAN modelinə keçirmək prosesinə start verilib; buna ciddi müqavimət var, lakin iş də gedir. Bu baxımdan, qarşıdakı həftələrdə, aylarda Azərbaycanı yeni məmur həbsləri və işdən çıxarılmalar gözləyir.

❑ **"Yenì Müsavat"**



# Nardaranda əməliyyat zamanı 22 nəfər saxlanılıb

## Hacı Taleh Bağırzadənin apelyasiya şikayəti təmin olunmadı

**Daxili İşlər Nazirliyinin və Daxili Qoşunların qüvvələri Nardaran kəndinə nəzarət edirlər. Musavat.com-un Nardaranda olan reportyoru xəbər verir ki, kəndə kənar şəxslərin girişi qadağandır. Kənd sakinləri şəxsiyyət vəsiqələrini təqdim edərək, postlardan keçirlər.**

Kənddə divarlarda yazılan dini şüarlar boyalarla silinir. Küçələrdə olan plakatlar sökülür. Dini bayraqlar isə tamamilə yığışdırılıb.

Nardaranın İmam Hüseyn meydanında da bütün şüarlar yığışdırılıb. Daxili Qoşunların qərargahı da bu meydandadır.

Bu işlərə hazırda Sabunçu Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Güloğlan Məmmədov nəzarət edir. Rayon icra başçısı Adil Vəliyev də dünən səhər saatlarında Nardaranda olub.

Ötən gün daxili işlər naziri Ramil Usubovun da Nardarana gedəcəyi bildirilirdi.

Nardaran və ətraf ərazilər hazırda Çevik Polis Alayının nəzarətindədir...

Nardaranda dekabrın 1-də keçirilən əməliyyat zamanı 22 nəfərin saxlanıldığı deyilir. Musavat.com-un Nardaranda olan reportyoru xəbər verir ki, kənd sakinləri hələ ki saxlanılanların 22 nəfər olduğunu bilir, lakin bəzi sakinlərdən ümumiyyətlə xəbər yoxdur. Onların saxlanılması və ya harada olması məlum deyil.

Reportyorumuz saxlanılan bəzi şəxslərin adlarını kənd sakinlərindən öyrənə bilib. Onlar aşağıdakılardır:

**Atabala Şahbazov Abbasəli oğlu**
**Mehdi Haciəlioğlu**
**Hacı Əli Mollahüseyn oğlu**
**Əlimirzə kənd sakini**
**Vüqar adlı kənd sakini**
**Mehman Müştəba**
**Bəxtiyar və iki qardaşı** ***(onlar saxlanılarkən analarını infarkt vurub)***
**Əbülfəz Hacıbala oğlu**
**Keçmiş bələdiyyə sədri Hacı Eldar və iki oğlu**
**Sərdar Ələmdar oğlu**
**Bəylər adlı kənd sakini.**

Kənd sakinləri deyir ki, Nardaranda keçirilən əməliyyat zamanı bir nəfər ayağından vurulub. Bu polisə daş atdığı deyilən Əbülfəz adlı kənd sakinidir.

Noyabrın 26-da polislə silahlı qarşıdurmada öldürülən Nardaran sakinlərinin meyitlərini isə ailə üzvlərindən və kənd sakinlərindən heç biri görməyib.

Dünən meyitlərin kəndə gətirilməsi xəbərini vermişdik. Bəzi mətbuat orqanları isə artıq meyitlərin dəfn edildiyini yazmışdı.

Lakin kənd sakinləri bunu təsdiq etmir. Kənd ağsaqqalı Natiq Kərimov bildirib ki, meyitlərin dəfn olunmasını heç kim görməyib və dəfndə də heç kim iştirak etməyib.

Kənd ağsaqqalı Hacı Hüseyn isə deyir ki, ölənlərdən heç birinin nə ailə üzvləri, nə də yaxınları dəfndə iştirak etməyib.

Natiq Kərimov deyir ki, ölənlər kənd qəbiristanlığında dəfn olunmayıb. Heç bir məzar yoxdur.

Ölənlərdən Əkbər Babayevin atası Nazim Babayev də reportyorumuza bildirib ki, oğlunun məzarını görməyib.

Əməkdaşımız daha sonra öldürülən Rafael və Fərail Bünyatov qardaşlarının evində olub. Həmin evlərdə heç kim olmayıb. Qonşular bildirib ki, dünən həmin evdə polis tərəfindən əməliyyat keçirilib.

Qonşular bildirib ki, iki qardaşın meyitini ailə üzvlərindən heç kim görməyib. Meyitlərin dəfnindən də xəbəri olan yoxdur.

***

Dünən saat 16 radələrində Nardarana FHN-in xeyli qüvvəsi gətirilib.

Canlı qüvvə ilə yanaşı, kəndə xeyli sayda avadanlıq, o cümlədən çadırlar, döşəklər gətirilib. Onların kənddə çadırlar quracağı gözlənilir. Ehtimal olunur ki, FHN briqadaları partladıcı maddə axtaracaqlar.

***

Dünən Bakı Apelyasiya Məhkəməsində "Müsəlman Birliyi Hərəkatı" adlı təşkilatın sədri Taleh Bağırzadə barəsində həbs-qətimkan tədbirinin seçilməsinə dair məhkəmə qərarından apelyasiya şikayəti üzrə məhkəmə keçirilib.

"Report"un xəbərinə görə, hakim Əflatun Qasımovun sədrliyi ilə keçirilən iclasda T.Bağırzadənin apelyasiya şikayəti təmin edilməyib.

Güclü təhlükəsizlik tədbirlərinin görüldüyü prosesdə T.Bağırov özü də iştirak edib. Qeyd edək ki, T.Bağırzadə noyabrın 26-da Nardaran qəsəbəsində polisin keçirdiyi əməliyyat zamanı tutulub. Onun barəsində dörd ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Bu arada Gəncədə "Müsəlman Birliyi" adlı hərəkatın üzvlərinə dəstək verən şəhər sakini Elnur Cabbarov və Elnur Mehdiyev, Binəqədi Rayon Polis İdarəsi 4-cü polis bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində isə Elgün Axundov tutulub. Onlardan silah-sursat və qadağan olunmuş dini ədəbiyyat götürülüb.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 269 (6297) 3 dekabr 2015

# Abid Şərifov haqqında xəbər gizlədilir

## Ekspert: "Baş nazirin müavininin səhhəti ilə bağlı sorğulara dəqiq cavab verilməlidir"



**Baş nazirin müavini Abid Şərifovun noyabrın 26-da Pekində Azərbaycan-Çin Ticarət-İqtisadi Əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın 5-ci iclasından sonra xəstələnməsi barədə xəbər vermişdik.**

Musavat.com-a daxil olan məlumatda bildirilirdi ki, həmin görüşdən sonra Abid Şərifovun səhhətində kəskin problemlər yaranıb. Buna görə də digər nümayəndə heyəti Bakıya qayıtsa da o, nəzərdə tutulan zamanda Azərbaycana dönə bilməyib və Pekində dərhal xəstəxanaya yatırılıb.

Lakin bu günə qədər məsələ ilə bağlı heç bir rəsmi məlumat ala bilməmişik. Nazirlər Kabinetinin mətbuat xidməti bildirir ki, Abid Şərifovun səhhəti ilə bağlı yayılan məlumatdan xəbərsizdir. **Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli musavat.com-a açıqlamasında bildirib:** "Xahiş edirəm bu məsələ ilə bağlı mənə sual verməyin. İşlə bağlı mənə sual verə bilərsiz. Ancaq səhhəti ilə əlaqəli məsələlər barəsində məlumat almaq üçün onun köməkçisi ilə əlaqə saxlayın".

Köməkçisi isə açıqlamasında mətbuat xidməti ilə əlaqə saxlamağımızı bildirmişdi.

Göründüyü kimi, məlumat nə təkzib edilir, nə də bununla bağlı hər hansı bir rəsmi açıqlama verilir.

Bu cür hallarda mətbuat xidməti necə davranmalıdır?

**Məsələ ilə bağlı "Yeni Müsavat"a teletənqidçi, professor Qulu Məhərrəmli danışıb. O bildirib ki, Abid Şərifovun xəstələnməsi ilə bağlı yayılan məlumat şəxsi məsələ deyil:** "Mətbuat olaraq sizin yanaşmanız normaldır. Abid Şərifov ictimai şəxsdir və yüksək çinli məmurdur. Onun xəstələnməsi ilə bağlı məlumat şəxsi məsələ sayılmır. Allah ona şəfa versin. Xəstələnibsə bunu özü etməyib ki... Təbii ki, belə məqamda sorğuya dəqiq cavab verilməlidir. Bir şeyi də qeyd edim ki, mətbuat xidmətləri hər xəstələnən məmur üçün ictimaiyyətə açıqlama yaymaq məcburiyyətində deyil. Bu yalnız dövlət başçısına aid bir haldır ki, onun hər bir addımı ilə bağlı ictimaiyyətə məlumat verilməlidir. Lakin digər yüksək vəzifəli şəxslər vardır ki, bəzi hallarda onlar görünmədikdə mətbuat bununla bağlı axtarışa başlayır. Bu, halda sorğulara dəqiq cavab verilməlidir. Eyni ilə Nazirlər Kabinetinin mətbuat xidmətinin, köməkçisinin də vəzifəsidir ki, bununla bağlı münasibət bildirsinlər".

**Məsələnin hüquqi tərəfləri barədə danışan hüquqşünas Müzəffər Baxış da bildirib ki, qanuna görə, bu cür məlumata münasibət bildirilməlidir:** "Əgər informasiya ictimai əhəmiyyət kəsb edirsə, bu barədə məlumat verilməlidir. Abid Şərifov sıravi bir adam deyil. O, baş nazirin müavinidir. İctimaiyyətin onun səhhəti ilə bağlı məlumat əldə etmək hüququ var. İctimaiyyət bilməlidir ki, baş nazirin müavini öz vəzifələrini necə icra edir. Azərbaycanda əksər dövlət orqanlarında mətbuat xidmətləri, həmin orqanın rəhbərinin icazəsi olmadan bu və ya digər informasiyanı verə bilmir. Əslində normal cəmiyyətdə bu cür məlumatları mütəmadi şəkildə verirlər ki, dövlət orqanlarının vəzifəli şəxsləri barəsində insanlarda şübhələr yaranmasın. Eyni zamanda bu, şayiələrin də yaranmasının qarşısını alır. Lakin təəssüf ki, bizdə buna əməl olunmur. Mətbuat xidmətləri vəzifələrinə düşən işi görmürlər".

❑ **Əli RAİS**

# Türkiyədən Azərbaycana gələn mallar ucuzlaşacaq...

## Vüqar Bayramov: "2016-cı ildə Türkiyədən Azərbaycana gətirilən məhsulların həcmində artım olacaq"

**Rusiya ilə Türkiyə arasında münasibətlərin kəskinləşməsi və tətbiq edilən sanksiyalar Azərbaycana da ciddi təsir göstərəcək. Ekspertlər məsələyə bir neçə istiqamətdən yanaşaraq, baş verəcəkləri proqnozlaşdırırlar...**

**Ekspert Vüqar Bayramov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, baş verənlər nəticəsində Azərbaycana Türkiyədən gətirilən malların qiyməti aşağı düşəcək: "Türkiyənin ixrac etdiyi ərzaq məhsullarının 20, tekstil məhsullarının 15 faizi Rusiya bazarına daxil olur. Rusiyanın qadağaları şimal qonşumuzun bazarında ciddi boşluq yaradacaq. Aydındır ki, həmin məhsulların bir qismi digər ölkələrə, o cümlədən Azərbaycana ixrac ediləcək. Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin həcmi 1,8 milyard dollardır. Oxşar dövriyyə Azərbaycan Rusiya arasında var. Rusiya və Türkiyə arasında gərginlik dərinləşərsə, 2016-cı ildə Türkiyədən Azərbaycana gətirilən məhsulların həcmində artım olacaq. Bu isə türk mallarının qiymətlərinin ucuzlaşmasına gətirib çıxaracaq. Hazırda Türkiyə bazarında topdansatış təklif edilən malların qiymətlərində ucuzlaşma var. Nəticədə Azərbaycanın Türkiyədən daha ucuz ərzaq və qeyri-ərzaq məhsulları idxal edəcəyi gözlənilir".

**Ekspertin sözlərinə görə, Rusiya bazarındakı boşluq Azərbaycan fermer və sahibkarlarının sözügedən ölkəyə daha çox məhsul göndərməsinə səbəb olacaq:** "Bu isə istehlak bazarında yerli kənd təsərrüfatı məhsullarının qıtlığını yarada bilər. Bu baxımdan, Rusiya bazarına daha çox məhsulun göndərilməsi bazarda kənd təsərrüfatı məhsullarının, meyvə və tərəvəzlərin qiymətinin yüksəlməsinə səbəb ola bilər. İran və Türkiyədə ucuz kənd təsərrüfatı məhsullarının idxalı genişlənməzsə, o zaman meyvə və tərəvəzlərdə qiymət artımları müşahidə ediləcək. Təbii ki, Azərbaycan Türkiyə və Rusiya arasındakı münasibətlərin gərginləşməsində maraqlı olmayan ölkədir: Mübahisəsiz, ölkəmiz bu dövlətlər arasında əlaqələrin yaxşı olmasını ən çox istəyənlərdəndir. Sözügedən qonşularımız arasında yaxşı münasibətlərin olması bizim strateji maraqlarımıza uyğundur. Bununla belə, adıçəkilən ölkələr arasında münasibətlər gərginləşəcəyi halda, Azərbaycan şirkətləri həm Türkiyə qida, xüsusən də aqrar məhsullarının Rusiya bazarında boşalan yerini tutmağa və şimal qonşumuzun turistlərini cəlb etməyə çalışmalıdır. Bunlara rəğmən, bölgədə sabitliyin qorunub saxlanması və Türkiyə ilə şimal qonşumuz arasında münasibətlərin qısa zamanda yaxşılaşması rasional olaraq dövlətimizin strateji maraqlarına birbaşa xidmət edir".

**Ekspert Pərviz Heydərov isə bildirib ki, Rusiyanın baş naziri Dmitri Medvedyevin hökumətə yaxın 2 gün ərzində Türkiyə ilə iqtisadi və humanitar sahələrdə qarşılıqlı münasibətləri məhdudlaşdırmağa dair müvafiq tədbirlər işləyib hazırlamağı tapşırması Moskvanın Ankara ilə uzun illər ərzində formalaşmış, xüsusən də son dövrlərdə daha**



Vüqar Bayramov

**da yüksək səviyyəyə çatmış mövcud əlaqələri birtərəfli qaydada qırmaqdan çəkinmədiyini nümayiş etdirir. (caspianbarrel).**

"D.Medvedyev bildirib ki, tədbirlər konkret hər hansı bir müddət üzrə tətbiq olunmayacaq və bu məsələ beynəlxalq situasiya, Türkiyə ilə münasibətlərin bundan sonrakı inkişaf istiqamətindən asılı olacaq. Söhbət iqtisadi əməkdaşlıq proqramlarını dayandırmaqdan, maliyyə əməliyyatları ilə xarici ticarət sövdələşmələrini məhdudlaşdırmaqdan, idxal-ixrac rüsumlarını dəyişdirməkdən, turizm sahəsində həyata keçiriləcək məhdudlaşdırma tədbirlərindən, daşımalar, hava və su nəqliyyatı da daxil olmaqla, humanitar əlaqələrdən gedir. Odur ki, belə təəssürat yaranır ki, Rusiyanın Türkiyə ilə iqtisadi əlaqələrində sanki məhz Ankara Moskvadan asılı vəziyyətdə imiş və baş vermiş məlum təyyarə hadisəsinə görə də itirən demək, yalnız və yalnız Türkiyə olacaq",- deyə ekspert vurğulayıb.

**Onun sözlərinə görə, bu fikri gücləndirən ən böyük amillər isə ondan ibarətdir ki, hər iki ölkə arasında qarşılıqlı mal dövriyyəsində (2014-cü ildə cəmi 31 milyard ABŞ dolları) böyük üstünlük Rusiyaya məxsusdur. Həmçinin Türkiyəyə Rusiyadan hər il təşrif buyuran milyonlarla turist böyük məbləğdə gəlirlər gətirirdi. 2014-cü ildə 4,5 milyon nəfər rus turisti gəlib. Ən əsası da Ankara Rusiyadan energetika sahəsində asılı vəziyyətdədir.** "Sonuncu barədə qeyd edək ki, Türkiyənin qaza olan tələbatının bu gün təqribən 60 faizini Rusiyanın "Qazprom" şirkəti ödəyir. "LUKoyl" isə sözügedən ölkədə 600-dən çox yanacaqdoldurma məntəqəsinə sahibdir. Həmçinin ümumiyyətlə, bütövlükdə enerji sektoruna dair ortada hər birinin dəyəri milyonlarla ABŞ dolları ilə ölçülən, hətta üstəlik 20 milyard dollar məbləğində olan atom elektrik stansiyasının tikintisi kimi layihələr də var",- deyə o əlavə edib.

**P.Heydərovun sözlərinə görə, Rusiyanın Türkiyə ilə iqtisadi əlaqələri birtərəfli qaydada məhdudlaşdıracağı təqdirdə itirən ən çox əslində elə məhz onun özü olacaq:** "Çünki hər şeydən öncə, Rusiya ilə Türkiyənin iqtisadiyyatları tam fərqli özüllər üzərində qurulub. Bu gün Rusiyada istehlakçıların hüquqlarının qorunmasına nəzarət üzrə federal idarə sayılan "Rospotrebnadzor" Türkiyə istehsalı olan yüngül sənaye məhsullarının, o cümlədən uşaq geyimləri ilə mebel və yuyucu vasitələrin keyfiyyətinin aşağı olduğunu bəyan edir. Və adıçəkilən qurum tərəfindən keyfiyyət və təhlükəsizlik tələbləri guya pozulduğu üçün Türkiyə məhsulları üzərində gücləndirilmiş nəzarət həyata keçiriləcəyi söylənilir.

Eyni zamanda ət məhsulları, su bioloji resursları, qənnadı məmulatları, meyvə-tərəvəz və quru meyvə də daxil olmaqla, bir sıra mallar da risk qrupuna daxil edilib. Bundan əlavə, Rusiyaya məxsus iri turizm şirkətləri bu ölkə vətəndaşlarının Türkiyəyə turist səfərlərinə getmələri üçün bütün zəruri olan əməliyyatları dayandırmışdır. Həmçinin Türkiyədən gələn yük avtomobillərinin Rusiya ərazisinə daxil olmasına və daşımalara da məhdudiyyət qoyulub. Sözümüz bunda deyil.

Bunları qoyaq bir kənara... İş ondadır ki, təkcə bütün bu sadalananlar məhz hansı ölkənin iqtisadiyyatının əslində daha çox möhkəm özüllər üzərində dayandığını və mövcud iqtisadi sistemin də real olaraq xammal, yoxsa xidmət və qeyri-enerji sektoru məhsulları istehsalı üzərində qurulduğunu əyani göstərir.

Rusiya Türkiyədən fərqli olaraq sırf xammal ölkəsidir. Və bu mənada, Moskva üçün Türkiyə olduqca əlverişli və həm də zəruri bazardır. Digər tərəfdən, Rusiyanın daxili istehlak bazarı türk sənaye məhsullarından əhəmiyyətli dərəcədə asılı vəziyyətdədir. Və bu tendensiya dünən və yaxud bu gün deyil, demək olar ki, hələ keçən əsrdən müşahidə olunmaqdadır. Sual olunur ki, bəs bir az əvvəl hər iki ölkənin rəsmiləri ticarət dövriyyəsinin həcmini, görəsən, niyə 3 dəfədən çox artırmaq haqda danışırdılar? Yeri gəlmişkən, Avropa İttifaqı (Aİ) Rusiyaya sanksiyalar tətbiq etdikdən sonra şimal qonşumuzun daxili bazarı türk sənaye və qida məhsulları idxalından daha asılı vəziyyətə düşdü. Belə ki, hazırda xarici ticarət sövdələşmələrini məhdudlaşdırmağa, mövcud idxal-ixrac rüsumlarını dəyişdirməyə hazırlaşan Rusiya hökuməti bu ilin əvvəlində Türkiyədən müxtəlif çeşiddə malların idxalının artması üçün hətta əlavə güzəştlərə də getməyə hazır idi. Ona görə ki, Rusiyadan Türkiyəyə əsas etibarı ilə xammal məhsulları ixrac edilirdisə, əks tərəfdən, kütləvi tələbat malları idxal olunurdu. Türkiyə Rusiyanı bitki mənşəli məhsullar, tekstil və müxtəlif avadanlıqlarla təmin edir. Təkcə tikinti mallarını qeyd etmək isə ümumiyyətlə, kifayət idi".

**O ki qaldı enerji sektoruna, ekspert qeyd edir ki, Rusiyanın Türkiyədə bu sahədə mövcud bütün fəaliyyəti və perspektiv layihələri Moskvanın strateji maraqlarına xidmət edirdi:** "Bu layihələrə görə Ankara Qərbin əslində qınaq obyektinə çevrilmişdi".

Qeyd edək ki, əksər ekspertlər vurğulayırlar ki, yaranacaq böhranlı vəziyyətdən Türkiyənin daha az zərərlə və tez çıxmaq potensialı Rusiyadan yüksəkdir. Həmçinin onların fikrincə, Azərbaycan iki ölkə ilə münasibətdə sonadək neytral qala bilməyəcək. Yəni Rusiyanın Türkiyəyə qarşı həyata keçirdiyi sanksiyalar Azərbaycana da ciddi şəkildə təsir göstərəcək.

❑ **RÖYA**



**"Su-24" qırıcısının vurulmasından sonra yaranmış Türkiyə-Rusiya gərginliyinin Azərbaycana da təhlükə yaradacağı ilə bağlı proqnozlar reallaşmaqdadır. İşğalçı Ermənistanın hərbi-strateji müttəfiqi olan Rusiyanın Türkiyə və NATO təhlükəsindən qorunmaq adı altında Ermənistanı bundan sonra daha çox hərbiləşdirməyə çalışacağı bəlli idi və artıq bunun şahidiyik.**

# Rusiya Qarabağda müharibəni alovlandırmaq üçün bəhanə axtarır

## Moskva Türkiyə ilə sərhəddə topladığı hərbi texnika və əsgərin sayını artırdı, Azərbaycana da təhdid var...

Yayılan məlumatlara görə, Rusiya minlərlə hərbçi və texnikasını Ermənistanla Türkiyə sərhədinə yığır. Bu barədə Müdafiə Nazirliyinin məruzəsinə istinadən bir sıra Rusiya KİV-ləri məlumat yayıb. Məlumata görə, Rusiya prezidenti Vladimir Putin noyabrın 29-da Şimali Qafqaz hərbi dairəsində dislokasiya olunmuş 58-ci ordunun Türkiyə-Ermənistan sərhədində cəmləşdirilməsi barədə əmr verib. Sərhədə yerləşdirilən hərbi texnika arasında zenit-raket sistemləri, reaktiv yaylım atəşi sistemləri, tank əleyhinə komplekslər, motoatıcı və artilleriya qoşunları var. Toplam olaraq iki dövlətin sərhədinə Rusiyanın təxminən 7000 əsgəri cəmlənib.

Hesab olunur ki, Rusiya "Ankaradan gələn təhlükələrin" qarşısını Ermənistan vasitəsilə almağa çalışacaq.

Bir neçə il öncə Qərbin layihəsi əsasında Türkiyə-Ermənistan sərhədlərinin açılmasını özündə əks etdirən Sürix protokolları imzalanmışdı. O zaman təşəbbüs müəllifləri bu yolla Ermənistanın Qərbə çıxışını təmin etməyə, onu Rusiyanın əsarətindən qurtarmağa cəhd göstərsə də, Kreml əslində Ermənistanın güclənməsinə xidmət edən bu layihənin baş tutmasını əngəllədi. Düzdür, Rusiya burada Azərbaycanın maraqlarını nəzərə almadı, sadəcə, öz maraqlarına uyğun davrandı.

Bu ölkədə özünün hərbi bazasını yerləşdirən Rusiya Ermənistanı NATO təhlükəsinə qarşı bufer ölkə statusunda görür. Ancaq eyni zamanda Qarabağ münaqişəsini yarıdondurulmuş vəziyyətdə saxlamaqla regionda mövcudluğunu həmişəlik sürdürmək istəyir.

Bəzi müşahidəçilər hesab edir ki, iki paytaxt arasında yaşanan gərginliklər Qarabağda müharibəni alovlandıra bilər. Rusiya Liberal-Demokratik Partiyasının lideri, antitürk mövqeli V.Jirinovski "satqın" adlandırdığı ermənilərdən Türkiyənin əleyhinə istifadə etməyə çağırıb və Türkiyəyə qarşı "Böyük Ermənistan" iddialarına haqq qazandırıb.

Şübhəsiz ki, bu, həm də Azərbaycana qarşı iddialara, Qarabağın işğalına bəraət qazandırmaqdır. Bəzi rusiyalı ekspertlər, hətta prezident Putinin köməkçisi olan şəxslər Türkiyənin Qarabağ məsələsinə müdaxilə edə biləcəyini iddia edib Rusiyanın qabaqlayıcı addımlar atmasına zəmin yaratmağa çalışırlar. Düzdür, Türkiyə baş naziri Əhməd Davudoğlu Ankaranın Qarabağ məsələsində Azərbaycanın yanında olduğunu bəyan edib və 3 dekabr Bakı səfərində yəqin bu mövqe bir daha dilə gətiriləcək. Ancaq qardaş ölkə də məsələnin sülh yolu ilə, ədalətli qaydada çözümünə üstünlük verir və müharibəni alovlandırmağa maraqlı görünmür. Belə olan təqdirdə hesab olunur ki, Putin Türkiyəni də müharibəyə cəlb etmək üçün Qarabağ münaqişəsini alovlandıra bilər...

***

Beləliklə, dekabrın sonlarında prezidentlər səviyyəsində növbəti Qarabağ müzakirəsi gözlənildiyi halda, vəziyyət yenidən gərginləşib. Son günlərdə Azərbaycan cəbhədə növbəti itki verib. Noyabrın 30-da qoşunların təmas xəttində düşmənlə döyüş toqquşmasında Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər İsmayılov Elşən Aydın oğlu şəhid olub, bir əsgərimiz yaralanıb. Faktiki olaraq ermənilər fəallaşıb. Adətən qış dövrü cəbhədə sakitlik müşahidə olunduğu halda indi durum başqadır. Ruslar davamlı şəkildə bəyan edirlər ki, savaş başlasa və Türkiyə müdaxilə etsə, Rusiya Ermənistanı tək qoymayacaq. Rusiyanın açıq müdaxiləsi şəraitində Türkiyə savaşa qatıla bilərmi?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu artıq görüşün reallaşacağını gözləmir:** "Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə görüşmə ehtimalının az olduğunu aylar öncəsi söyləmişdim. Belə də oldu. Çünki müzakirə etməyə mövzu yoxdur. Danışıqları uzatmaq Ermənistanın maraqlarına xidmət edir. Ona görə də İlham Əliyev görüş görüntüsü naminə erməni həmkarı ilə görüşmədi və düz etdi. Rusiya-Türkiyə gərginliyi Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yoluyla həllini qeyri-müəyyən müddətə təxirə saldı. Rusiya ilə Türkiyə arasında münasibətlərin sıx olduğu dönəmdə belə fikirlər var idi ki, bu tandem Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirə bilər. Halbuki bu fikirlərə mən elə o vaxt da inanmırdım. İndi isə bu, ümumiyyətlə, mümkün deyil". E.Şahinoğlunun sözlərinə görə, Rusiya Türkiyənin strateji müttəfiqi olan Azərbaycanın xeyrinə Ermənistana təsir etməyəcək. Əksinə, bundan sonra cəbhə bölgəsində atəşkəsin pozulmasına qarşı Azərbaycan ordusunun tutarlı cavablarına Rusiyadan əsəbi reaksiya gələcək. Dağlıq Qarabağ uğrunda müharibəyə başlasaq, Rusiya birmənalı olaraq separatçılara dəstək verəcək, onlara silah və sursat ötürəcək. Rusiya ayrıca, sərhəd bölgələrimizi atəş altında saxlamaq üçün Ermənistana dəstəyini artıracaq. Ümumiyyətlə, Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda Moskva Ermənistandakı hərbi bazasını Azərbaycan və Türkiyə əleyhinə gücləndirəcək. Buna cavab olaraq Azərbaycan Türkiyə ilə hərbi əməkdaşlığı genişləndirməlidir. Bölgədə elə bir vəziyyət yarana bilər ki, Rusiya və Ermənistan ittifaqının təxribatları Rəsmi Bakını Türkiyənin hərbi bazasının Azərbaycanda yerləşdirilməsi danışıqlarına başlamağa məcbur edə bilər. Ümumiyyətlə, Bakı indidən Moskvaya mesajlar yollamalıdır ki, ermənilər vasitəsilə təxribata əl atsalar, Türkiyənin "F-16" hərbi təyyarələri Azərbaycan səmasında görünəcək".



**Elxan Şahinoğlu:** "Rəsmi Bakı indidən Moskvaya mesajlar yollamalıdır ki, ermənilər vasitəsilə təxribata əl atsalar, Türkiyənin "F-16" hərbi təyyarələri Azərbaycan səmasında görünəcək"



**Arzu Nağıyev:** "Qarabağ münaqişəsinin həlli geosiyasi vəziyyətdən asılı olaraq çətinləşəcək və hətta gərginlik arta bilər"

**Politoloq bildirdi ki, Rusiya prezidenti Ermənistanla Türkiyə arasında yerləşdirdiyi qoşun birliklərini və hərbi texnikanı artırmaqla Türkiyəyə qarşı uzunmüddətli mübarizəyə hazırlaşır:** "Putin odla oynayır. Aydındır ki, Türkiyə bu prosesə seyrçi qalmayacaq, qardaş dövlət də Ermənistan sərhədindəki qoşun birliklərini gücləndirəcək. Kreml Ermənistanı faktiki oyuncağa çevirib. Jirinovskinin sözü olmasın, Rusiya Türkiyə ilə mübarizədə Ermənistanı qurbanlıq qoyun etmək istəyir. Rusiyanın Ermənistanı hərbi nöqteyi-nəzərdən gücləndirməsi Azərbaycana da xoş olmayan jestdir. Onsuz da rusiyalı rəsmilərin və ekspertlərin Azərbaycan əleyhinə ritorikaları sərtləşib. Fikir verin, biz hələ heç bir addım atmamışıq, ancaq Türkiyə ilə yanaşı, Azərbaycan əleyhinə də təbliğat güclənib. Bəlkə də haqlıdırlar. Çünki bilirlər ki, Azərbaycanın Türkiyəni, Türkiyənin isə Azərbaycanı dəstəkləməkdən başqa alternativi yoxdur. Rusiya Ermənistan vasitəsilə Dağlıq Qarabağda və ya sərhəddə bizə qarşı təxribat həyata keçirsə, biz gərəkirsə, təkbaşına, gərəkirsə də Türkiyə ilə birgə hərəkət etməliyik. Əgər müəyyənləşə ki, Rusiya Ermənistan üzərindən Dağlıq Qarabağa silah və sursat göndərir, orada hərbi varlığını artırır və ya Xankəndindəki hava limanından istifadə etmək istəyir, biz düşünmədən Türkiyənin Azərbaycanda hərbi varlığını aktuallaşdırmalıyıq".

**Politoloq Arzu Nağıyev razıdır ki, Türkiyə -Rusiya qarşıdurması Dağlıq Qarabağ münaqişəsinin həllinə öz mənfi təsirini göstərdi:** "Məlumdur ki, Türkiyə Azərbaycanı beynəlxalq arenalarda daima dəstəkləyib və münaqişəyə görə ermənilərlə sərhədini açmayıb. Düşünürəm ki, bu gün regional güclər arasında geosiyasi savaşın pik səviyyədə olduğu şəraitdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması çətinləşəcək. Rusiya Ermənistanı öz tərəfdaşı hesab etməklə bundan Türkiyəyə qarşı istifadə edir. Əvvəllər də məlum idi ki, Rusiya bu və digər təkliflərlə regionda söz sahibi olduğunu göstərməyə, bu yolla isə Ermənistan münaqişənin həllində status-kvonu saxlamağa çalışır, atəşkəsi pozmaqda və beynəlxalq normalara riayət etməməkdə davam edir".

**A.Nağıyevin sözlərinə görə, məhz belə bir şəraitdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərinin də baş tutacağı əvvəlcədən də olduğu kimi sual altındadır:** "Hətta baş tutsa belə, hazırkı şəraitdə nəzərdə tutulan görüş münaqişənin həlli üçün əhəmiyyətli rol oynamayacaq. Rusiya bu görüşün ABŞ tərəfindən təşkil ediləcəyinə qısqanclıqla yanaşır və bu görüşün baş tutmamasına cəhd edir. Moskva bundan əvvəl də münaqişənin həlli istiqamətində müsbət addımlar atmırdı. Son olaylardan sonra isə Suriyadan olan ermənilərin işğal olunmuş ərazilərdə yerləşdirilməsi davam edə bilər. Artıq Rusiya Ermənistan-Türkiyə sərhədində silahlı qoşunların və texnikanın sayını artırır. Əvvəllər bunu başqa yolla edirdisə, yeni Ermənistan ərazisindəki 102 saylı Rusiya bazasına NATO-Rusiya sərhədini daha da bərkitmək adı altında yeni silah və sursat, eyni zamanda canlı qüvvə yığırdı, bu gün isə bunu açıq-açığına edir. Bu da ermənilərin xeyrinədir. Məhz belə bir vəziyyətdə Qarabağ münaqişəsinin həlli geosiyasi vəziyyətdən asılı olaraq çətinləşəcək və hətta gərginlik arta bilər".

**Bu arada Azərbaycanın Müdafiə Nazirliyi əsgərimizin şəhid olması ilə bağlı düşmənə xəbərdarlıq edib. Bildirilib ki, qoşunların təmas xəttində vəziyyətin növbəti dəfə gərginləşdirilməsinə görə məsuliyyət bütünlüklə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür, bu qanlı provokasiya nəticəsiz qalmayacaq və düşmənə vurulacaq zərbə sarsıdıcı olacaq. Bu həm də düşmənin havadarlarına xəbərdarlıqdır...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 269 (6297) 3 dekabr 2015

# Dini ekstremizmə qarşı mübarizə daha da sərtəşdirildi

## Komitə iclaslarında müzakirə olunan yeni qanun layihəsi parlamentə göndərildi

**Nardaranda yaşanan olaylar hazırda ölkə gündəminin əsas müzakirə mövzusudur. Baş vermiş qanlı toqquşmalarla əlaqədar ən müxtəlif yanaşmalar olsa da, hesab olunur ki, bu kimi olayların təkrarlanmaması üçün kompleks tədbirlər həyata keçirilməli, dövlətə qarşı zorakı davranışlara birdəfəlik son qoyulmalıdır.**

Qanunvericiliyin sərtləşdirilməsi istiqamətində də proses başlayıb. Dekabrın 2-də Milli Məclisin (MM) Hüquq siyasəti və dövlət quruculuğu, İctimai birliklər və dini qurumlar komitəsinin birgə iclasında yeni qanun layihəsi müzakirəyə çıxarılıb. İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov yeni hazırlanan "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış edərkən məsələyə həssas yanaşmanın zəruriliyindən danışıb: "Dünyada və Azərbaycan daxilində baş verən hadisələr dini ekstremizmlə bağlı məsələlərə xüsusi yanaşmağı tələb edir. Çünki ölkədə müxtəlif adlar altında yaradılan hərəkatların qarşısı vaxtında alınmalıdır". **Komitə sədrinin sözlərinə görə, hazırda dünyada müxtəlif adlar altında ölkələrə müxtəlif ideyalar ixrac olunur:** "Bu gün din adı altında öz ideyalarına başqa-başqa don geyindirən hərəkatlar mövcuddur. İndi isə vəziyyət tamamilə fərqlidir. Çünki onlar sırf mənəviyyat məsələsini əsas götürürlər. Ona görə də həmin şəxslərə qarşı cəzalar sərtləşdirilməlidir". **S.Novruzov həmçinin əlavə edib ki, cəmiyyətin fikirlərinə heç vaxt laqeyd qalmaq olmaz:** "Azərbaycanda hər bir vətəndaşın hüquqları yüksək səviyyədə qorunur və təmin edilir. Hər kəs qanun qarşısında bərabərdir. Bu səbəbdən də hamının qanunun tələblərinə əməl etməsi mütləqdir. Konstitusiyada dövlət quruluşu da müəyyənləşib. Ona görə də mənəvi dəyərləri mövcud olan ölkədə əks nəsə etmək, başqa dövlətin modelini burada qurmaq istəyənlər mütləq şəkildə məsuliyyətə cəlb olunmalıdır".

**S. Novruzov onu da xatırladıb ki, bu gün Azərbaycanda xalqla iqtidar bir yerdədir:** "Mövcud qanunvericilikdə imkan verir ki, ölkədəki demokratik vəziyyət əbədi olsun. Digər dini cərəyanlar da buna əsla müdaxilə edə bilməz".

**3 fəsildən, 15 maddədən ibarət yeni qanun layihəsinə əsasən dini ekstremizmə qarşı mübarizənin əsas prinsipləri qanunçuluğun təmin edilməsi və dini ekstremizmə görə cəzanın labüdlüyüdür. Qeyd edək ki, qanun layihəsində dini ekstremizm əleyhinə mübarizə aparılan xüsusi zonanın hüquqi rejimi ayrıca fəsil kimi verilib. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın həyata keçirildiyi zonada bu əməliyyatı aparan şəxslər aşağıdakı hüquqlara malik olacaq:**



- Dini ekstremizm əleyhinə xüsusi əməliyyat zonasında nəqliyyat vasitələrinin və piyadaların hərəkətini müvəqqəti məhdudlaşdıran və ya qadağan edən tədbirləri tətbiq etmək. Ərazinin müəyyən sahələrinə və obyektlərə nəqliyyat vasitələrini və piyadaları buraxmamaq;

- Fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadan onların günün müəyyən edilmiş vaxtında küçələrdə və ya digər ictimai yerlərdə olmalarını qadağan etmək;

- Dini ekstremizm əleyhinə xüsusi əməliyyat zonasına giriş və ya bu zonadan çıxış zamanı fiziki şəxslərə, onların əşyalarına, nəqliyyat vasitələri və nəqliyyat vasitələrində olan əşyalara texniki vasitələr tətbiq etməklə baxış keçirmək;

- Fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədləri yoxlamaq, belə sənədlər olmadıqda isə şəxsiyyətin müəyyən edilməsi məqsədilə həmin şəxsləri İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş qaydada və müddətdə tutmaq;

- Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması məqsədilə fiziki şəxslərin mənzil və digər yaşayış yerlərinə, onların torpaq sahələrinə, nəqliyyat vasitələrinə, habelə mülkiyyət formasından asılı olmayaraq onların ərazilərinə, binalarına, nəqliyyat vasitələrinə maneəsiz daxil olmaq;

- Dini ekstremizm əleyhinə xüsusi əməliyyatı aparan şəxslərin qanuni tələblərinə mane olmağa yönəlmiş hərəkətlər törədən şəxsləri tutmaq;

- Müqavimət göstərən dini ekstremistləri zərərsizləşdirmək;

- Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar zərurət yarandıqda fiziki şəxsləri əməliyyat zonasından köçürmək, binaların, qurğuların və digər tikililərin sökülməsini təmin etmək;

- Dini ekstremizm əleyhinə xüsusi əməliyyat zonasında fiziki və hüquqi şəxslərə rabitə xidmətinin və kommunal xidmətin göstərilməsini müvəqqəti dayandırmaq.

- Dini ekstremizm fəaliyyətini aşkar etmək, həmin fəaliyyətə qarşı mübarizə aparmaq və onun qarşısını almaq məqsədilə telefon danışıqlarına qulaq asmaq, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanı çıxarılması və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunda nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərini tətbiq etmək;

- Dini ekstremizm əleyhinə xüsusi əməliyyat zonasında sanitar epidemioloji baytarlıq və karantin tədbirlərini tətbiq etmək;

- Dini ekstremizm əleyhinə xüsusi əməliyyat zonasında tərkibində narkotik və psixotrop maddə olan dərman vasitələrinin dövriyyəsini məhdudlaşdırmaq.

Diqqətçəkən odur ki, layihəyə görə, Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zamanı dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına ziyan vurulmasına yol verilir. Dini ekstremizmə qarşı mübarizədə iştirak edən şəxs dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zamanı vurulmuş ziyana görə məsuliyyət daşımır.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna dəyişiklik ediləcək.

APA-nın məlumatına görə, bununla bağlı layihə Milli Məclisdə Hüquq siyasəti və dövlət quruculuğu, Dini qurumlar və ictimai birliklər komitəsinin birgə iclasında müzakirəyə çıxarılıb.

Layihəyə əsasən, Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə bağlı 18-ci maddəyə yeni əlavələr (3-1, 3-2) ediləcək. Beləliklə, Azərbaycan vətəndaşı terror fəaliyyətində iştirakı və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsi hərəkətlərinin həyata keçirilməsi (3-1) və AR vətəndaşının dini ekstremist fəaliyyət və ya dini təhsil adı altında xarici dövlətdə hərbi təlim keçməsi, düşmənçilik zəminində dini məzhəblərin yayılması və ya dini ayinlər adı altında xarici dövlətdə dini münaqişələrdə iştirak etməsi və ya həmin fəaliyyətə digər şəxsi cəlb etməsi, yaxud bu məqsədlə silahlı qrup yaratması Azərbaycan vətəndaşlığının itirilməsi ilə nəticələnəcək.

Qanun layihələri müzakirələrdən sonra parlamentin ayın 4-də keçiriləcək növbəti plenar iclasına tövsiyə olunub.

❑ **E.PAŞASOY**

# Bir iribuynuzlu heyvan üçün 25 AZN, bir yumurta üçün 1 sent...

## Kənd Təsərrüfatı Nazirliyinin ilginc rüşvət siyahısı "Yeni Müsavat"da

**"Yeni Müsavat" qəzetinin redaksiyasına Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin "mətbəx"inə aid ilginc sənəd daxil olub. Sənəddə sözügedən xidmətin daxilindəki rüşvət preyskurantları qeyd olunub. Bunu qəzetimizə ötürən şəxs bildirib ki, Dövlət Baytarlıq Xidməti ölkəyə idxal (ixrac) olunan yüklərə, məhsullara baytarlıq icazəsinin alınması üçün müraciət edən sahibkarlardan külli miqdarda rüşvət alır. Malların siyahısı zəngin olduğu üçün bunu sistemləşdirmək və idxal olunan malların siyahısı, onların çəkisinə müvafiq olaraq "taksa"sı barədə idarənin müvafiq şöbəsində qeydiyyat aparılıb. Necə deyərlər, xidmət bu siyahı əsasında çalışır. Heç nə unudulmasın, qarışıq salınmasın deyə.**

"Yeni Müsavat"a eyni zamanda bu daxili sənədlərin surəti də daxil olub. Mənbə qeyd edir ki, bu siyahı xidmətin əksər əməkdaşlarına məlumdur və sirr kimi saxlanılmır.

Siyahıdakı qiymətlərə diqqət edək. Ölkəyə idxal edilən damazlıq toyuq yumurtasının birinə 1 sent, bir günlük cücənin birinə 1 sent, eləcə də xaricdən gətirilən bir baş iribuynuzlu heyvana 25 manat, qoyun-keçiyə 12 manat, 100 tonlarla ət, yağ, süd və süd məhsulları, quru süd, balıq və digər heyvandarlıq məhsullarının hər bir maşınına 100-150 manat qiymət müəyyənləşib.

Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıdan başqa, Dövlət Baytarlıq Nəzarəti İdarəsindən icazəsi nəzərdə tutulmayan konservləşdirilmiş, yəni termiki işləmədən keçmiş heyvan mənşəli məhsullar - balıq konservi, mal əti konservi, quru süd, dondurma yoqurt, qatılaşdırılmış süd, mayonez, uşaq qidası, kərə və digər emal edilmiş yağlar, kolbasa məmulatları, kimyəvi yollarla işlənmiş dərinin hər maşınına 100-150 manat rüşvət tələb olunması da redaksiyamıza verilən məlumatlar sırasındadır.

Amma siyahıda diqqət çəkən qiymətləndirmə aşağıdakı kimidir.

İribuynuzlu mal-qara məsələsində hansı ölkədən idxal/ixrac olunması və bunun siyahıda qiymətlərə necə təsir göstərməsi də maraqlıdır. Belə ki, redaksiyamıza çatan siyahıda MDB-dən gətirilən bir ədəd iribuynuzlu üçün alınan rüşvətin məbləği 25 AZN olaraq qiymətləndirilib. 09.10.2015 tarixinə aid olan siyahıda göstərilib ki, həmin tarixdə idxal olunan iri buynuzlu mal-qaranın sayı 101 ədəddir. Bu, hesablanıb və sonda ümumi 2525 AZN məbləği qeyd olunub. Avropadan idxal olunan 1 baş iribuynuzlu üçünsə 30 AZN-lik rüşvət müəyyən olunub. İt-pişik yeminin 1 tonu üçün 71 AZN rüşvət müəyyən olunub. Sözügedən tarixdə idxal olunan 5 tonluq it-pişik yemi üçün 400 AZN məbləğində rüşvət siyahıda qeyd olunub. Yarımfabrikatların 1 tonu üçün 8 AZN, jelenin eyni miqdarı üçün 8 AZN qiymət qeyd olunub. İxrac qiymətləri də aşağı sayılmaz. Xırda buynuzlu heyvan dərisinin 1 ədədi üçün qiymət 0.005 sent müəyyənləşib. Həmin gün onların sayı 73713 ədəd olub. Sonuc... 450 AZN.

Siyahı xeyli zəngin olduğu üçün "Yeni Müsavat" onu olduğu kimi təqdim edir.









### Yolçu Xanvəli: "Rüşvətdən söhbət gedə bilməz"

**Dövlət Baytarlıq Xidmətinin mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələ araşdırılıb:** "Belə bir siyahının mövcud olması mümkün deyil. Şər-böhtan xarakteri daşıyır. Rüşvətdən söhbət gedə bilməz".

**Y.Xanvəli dedi ki, bu siyahı ilə tanışdılar və onun hardan, necə yaranması barədə anlayışları yoxdur:** "Bildiyimiz bir şey var ki, bu, ağ yalandır".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 269 (6297) 3 dekabr 2015



# ANS-in “Delta Telekom”un rəhbəri ilə müsahibəsi niyə yoxa çıxdı?

## Saytdan materialı yığışdırdılar, həmkarlardan da “yığışdırın” xahişi edildi; Mais Məmmədov: “2 saat saxladıq, bəsdir...”

**“Delta Telekom”un baş direktoru Ramazan Vəliyevin ANS-ə müsahibəsi son günlərin ən səs-küylü hadisələrindən biri sayılır. Sözügedən müsahibədə R.Vəliyev iki həftə bundan öncə rəhbərlik etdiyi şirkətdə baş vermiş qəzadan və onun nəticəsində Azərbaycanın saatlarla internetsiz qalmasının səbəblərindən danışmışdı.**

Maraqlıdır ki, müsahibənin videosu anspress.az saytında yayılsa da, bir gün sonra yığışdırılıb. Daha doğrusu, videonun özü silinib. Əldə etdiyimiz məlumatlara görə, videonun yayılmasından bir gün sonra, yəni bazar ertəsi ANS-in tanınmış simaları müxtəlif saytlara zəng edərək, onlardan həmin materialı saytlarından yığışdırmalarını dostcasına xahiş edib. Amma bu xahişin motivini açıqlamayıblar.

**ANS prezidentinin müavini Mayis Məmmədov “Yeni Müsavat”a açıqlamasında bu səs-küylü materialın “itməkliyinə” aydınlıq gətirdi. Dedi ki, bu barədə sayta məsul şəxslərdən soruşub:** “Mənə bildirildi ki, saytda material nə qədər qalar? Bazar günü veriliş yayımlanıb. İki saat saxlayıblar, sonra çıxarıblar”.

**Müsahibimiz dedi ki, videonun tamamən silinməsi barədə məlumatı yoxdur:** “Mənə, sadəcə, deyildi ki, saytı yeniləmişik”.

“Yeni Müsavat” isə xatırladır ki, ANS-in vitse-prezidenti Mirşahin Ağayevin götürdüyü müsahibə kifayət qədər ciddi nüanslarla yadda qalıb. R.Vəliyev öncə onu bildirib ki, yanğın baş verən otaqda təmir işləri gedir və orada yeni avadanlıqlar quraşdırılır. Otaqda dövlətə aid avadanlıqlar var və yüksək amperajlı kabellər yuxarı hissə ilə gedir. Onun sözlərindən belə məlum olub ki, yanğın hadisəsi yuxarı hissədə baş verməyib. Sadəcə olaraq, aşağıda baş verən yanğın yuxarı kabelləri zədələyib. Son 2 il ərzində orada heç bir dəyişiklik olmayıb. Yeganə dəyişiklik bu ilin mayında dövlət tərəfindən qoyulan bir avadanlıqdır.

**Söhbət zamanı məlum olub ki, sözügedən avadanlıq konkret olaraq Milli Təhlükəsizlik Nazirliyi tərəfindən qoyulub:** “Həmin avadanlıq yanğın olan zalda olub, hazırda o avadanlıqlar demontaj olunub, ondan sonra bizim anbarda yerləşdirilib. Yəqin ki, biz o avadanlıqları təhvil verəcəyik. Demontaj edilib anbara qoyduğunuz bu avadanlıqlar təhlükəsizliyimizlə bağlı hansısa risklər yaradır? Tutaq ki, o avadanlıq var idi, vəziyyət başqa cür idi, indi o avadanlıq yoxdur, vəziyyət dəyişib. Əslində həmin avadanlıqlar təkcə ”Delta Telecom"da deyil, əməliyyat-axtarış fəaliyyəti ilə əlaqədar bütün rabitə operatorlarında quraşdırılıb".

Müsahibədə konkret MTN-ə aid detalların səslənməsi və bunun yaratdığı ajiotajın miqyası yetərincə böyük idi. Yayımdan cəmi 24 saat sonra süjetin tamamən silinməsi və həmkarlardan da bu materialı saytdan çıxarılmanın xahiş olunması ciddi mətləblərdən xəbər verir.

**Hətta Multimedia Mərkəzinin rəhbəri Osman Gündüzün də bu olayla bağlı dəyərləndirməsi düşündürücü idi. O.Gündüz bu yanğının MTN-in məlum sistemi ilə bağlı olması ehtimalını da istisna etməmişdi:** “Bu, MTN-in məlum sistemi ilə bağlıdırsa, onda digər operatorlarda, mobil operatorlarda, provayderlərdə olan MTN-ə məxsus bu tip sistemləri də monitorinq etmək doğru olardı”.

Bütün hallarda bu cür səs-küylü bir müsahibənin yayımı ciddi mətləblərdən xəbər verirdi. Yanğında MTN izi, bunun arxasında gizlənə biləcək mətləblər və bizi gözləyən təhlükələr... Əks halda, video saytdan yığışdırılmaz, materialı isə “iki saat saytda qaldı, bəsdir” məntiqi ilə silməzdilər.

❑ **Sevinc TELMANQIZI**

# Evimizə səssiz, iysiz girən qatildən necə qurtulmalı?




## Dəm qazı hər gün can alır...

**Azərbaycanda, xüsusən də paytaxt Bakıda qışın gəlişi ilə dəm qazından boğulanların sayı artır. Maarifləndirmə işlərinin aparılmasına baxmayaraq iysiz və gözəgörünməz qatil demək olar ki, hər gün can alır.**

Son olaraq dekabrın 1-də Bakı Dövlət Universitetinin tələbəsi, 20 yaşlı İlahə Abuzərova Xətai rayonu Şıxlınski küçəsində yerləşən mənzildə dəm qazından boğularaq ölüb. Noyabrın 27-də isə akademik Tofiq Hacıyev dəm qazından eyni səbəbdən dünyasını dəyişmişdi. Bu, sadəcə, son bir neçə gündə dəm qazının qurbanına çevrilənlərdir. Ümumiyyətlə, axır 5 günün statistikasına diqqət etsək görərik ki, 5 nəfər dəm qazının qurbanı olub.

Bəs həyatımıza son qoya biləcək dəm qazı haqda hər şeyi bilirikmi? Onun qurbanına çevrilməmək üçün hansı tədbirləri görməliyik?

Bir daha yada salaq ki, kimyəvi adı karbon-monooksid (CO) olan dəm qazı təmiz halda gözə görünməyən, rəngsiz, iysiz, dadsız, havadan yüngül, suda pis həll olunan qazdır. Dəm qazı natamam yanma məhsulu olub güclü zəhərləyici xassəyə malikdir. Bu qaz üzvi maddələrin, o cümlədən təbii qazın, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir. Çünki yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4 oksidə çevrilərək tüstü boruları vasitəsilə xaric olunur. Havatəmizləyici bacalar və borularda dəm qazının çıxmasına maneçilik törədən nasazlıqlar yarandıqda insanlar bu qazla nəfəs almaq məcburiyyətində qalırlar. Bu da nəticə etibarı ilə zəhərlənməyə səbəb olur.

Dəm qazı ilə zəhərlənmə daha çox rast gəlinən zəhərlənmələr siyahısında alkoqoldan, dərman preparatları və narkotik maddələrlə zəhərlənmədən sonra dördüncü yeri tutur. Diqqət etsək görərik ki, dəm qazından zəhərlənmələrin 70 faizi hamam otaqlarında baş verir. Bunun da səbəbi qaz quraşdırılan hamamın və ya mətbəxin standartlara cavab verməməsidir. Belə ki, qaz cihazı istifadə olunan otağın, mətbəxin və ya hamamın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalıdır. Qaz cihazından istifadə edilən qapalı yerdə mütləq şəkildə havaçəkən sistem işləməli, nəfəslik açıq saxlanılmalıdır. Hamamda ventilyasiya borusu, qapının aşağı hissəsində dəliklər olmalıdır, hamamı isti saxlamaq üçün bunları bağlamaq olmaz. Əgər bir evə 0,1 faiz dəm qazı yığılıbsa, artıq zəhərlənmə baş verəcək. Əgər mənzilə, mətbəxə, hamamxanaya 4,5 faiz qaz yığılıbsa, bu artıq partlayışa səbəb ola bilər. Bu cür partlayışın zərbə qüvvəsi çox böyük dağıntılar yaradır. Buna görə də tüstü bacaları, ən azı, ildə iki dəfə təmizlənməli, bu məqsədlə mənzil kommunal-istismar sahələrinə və ya bacaların təmizlənməsi ilə məşğul olan xüsusi lisenziyalı özəl şirkətlərə müraciət edilməlidir.

Dəm qazı iysiz olub hiss edilməsə də, bundan zəhərlənmələrin əlamətlərini hiss etmək olur: baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıq. Dəm qazı orqanizmə əsasən nəfəsalma zamanı ağ ciyərlər vasitəsilə daxil olur. Orqanizmə daxil olan dəm qazı hemoqlobinlə birləşərək karboksihemoqlobin əmələ gətirir. Karboksihemoqlobin isə dəm qazı ilə hemoqlobinin çətin ayrılan birləşməsi olduğundan oksigenin hemoqlobin vasitəsilə üzv və toxumalara daşınmasının qarşısını alır. Nəticədə orqanizmdə hipoksiya (oksigen aclığı) başlayır. Hipoksiya bütün orqanizmin, eləcə də onun ayrı-ayrı üzv və toxumalarının oksigenlə təchizatının pozulmasıdır. Mərkəzi sinir sistemi, ürək, həmçinin böyrək və qara ciyərin toxumaları hipoksiyaya daha çox həssasdır.

Dəm qazından zəhərlənmə avtomobillərdə də mümkündür. Belə ki, avtomobilin qarajda 10 dəqiqə işləməsi şəraitində nəfəs alan adamın qanında karbon-monooksidin miqdarı ölümcül həddə çata bilər. Havada dəm qazının miqdarı 0,08 faiz olduqda başağrısı, başgicəllənmə və boğulma başlayır. Dəm qazının miqdarı nəfəs aldığımız havada 0,32 faiz olduqda 30 dəqiqə, 1,2 faiz olduqda isə 2-3 dəqiqə ərzində - 2-3 nəfəs almadan sonra ölüm baş verir. Zəhərlənmə zamanı ölümün səbəbi isə tənəffüs mərkəzinin iflici nəticəsində ürəyin dayanmasıdır.

Ümumiyyətlə, dəm qazından zəhərlənmiş insan özü özünə ilkin tibbi yardım göstərə bilmir. Bu cür insanlara yalnız onun ətrafında olanlar yardım göstərə bilərlər. Dəm qazı ilə yüngül zəhərlənmə zamanı zərərçəkəndə başgicəllənmə, baş ağrısı, quru öskürək, ürəkbulanma, qusma kimi əlamətlər meydana çıxır. Daha ağır zəhərlənmə zamanı qıcolmalar, huşun uzun müddətə itirilməsi, beyin ödemi, ürəyin zədələnməsi baş verir. Zəhərlənmiş insan dərhal təmiz havaya çıxardılmalı, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad edilməli, təcili tibbi yardım çağırılmalıdır. Ağciyər ödeminin qarşısını almaq üçün isə zərərçəkəni yarı oturaq vəziyyətdə oturtmaq, alnına, sinəsinə soyuq kompres qoymaq lazımdır. Əgər o, nəfəs almırsa və ürək dayanmışsa, dərhal ürəyin xarici masajı və süni tənəffüs həyata keçirilməlidir.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 269 (6297) 3 dekabr 2015



# 19 yaşı var, 20 quldurluğu…

## "Oğurladığım pulla viski, redbul içirdim"

**Sumqayıtda 20-yə yaxın quldurluq əməli törədən 19 yaşlı şəxs məsuliyyətə cəlb olunub. Sumqayıt Şəhər Polis İdarəsinin əməliyyatçıları şəhər ərazisində çoxsaylı oğurluq və quldurluq hadisələri törətməkdə şübhəli bilinən Kənan Ədalət oğlu Bayramovu yaxalayıb. 19 yaşlı Kənan 20-yə yaxın oğurluq və quldurluq hadisələri törətməkdə şübhəli bilinir.**

Yaxalanaraq istintaqa təhvil verilən Kənan Bayramov törətmiş olduğu hadisələri danışmaqdan çəkinməyib:

"Bilə-bilə etməmişəm bunu. Dedim, yəqin 40 min, 50 min götürərəm, qaçıb gedərəm Moskvaya. Dükandan siqaret aparırdım, onu satıb, gedirdim kafeyə, orada xərcləyirdim. Viski, redbul içirdim".

Özünün dediyinə görə, girdiyi evdən çox az məbləğdə pul çıxıb. Bundan sonra ikinci, üçüncü və sair oğurluq və quldurluq hadisələrini törədib. Kənanı Sumqayıt polisi Salman Ağayevə məxsus mağazaya basqın edəndən sonra yaxalayıb. Dükana əlibıçaqlı girən Kənan Bayramov oradan pul və tütün məmulatları aparsa da, apardıqlarını xərcləməyə imkan tapmayıb.

"İstəyirdim ki, bir dəfə aparım, babat aparım, özümə şərait qurum. İçəridən çıxandan sonra başımı aşağı salıb, işimi görəcəyəm. Düzgün yolda deyiləm. Oğurluq düzgün yol deyil".

Kamran Bayramova qarşı Sumqayıt Şəhər Polis İdarəsində CM-in oğurluq və quldurluq maddələri ilə cinayət işi başlanıb. (Region TV)

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# Gənc oğlanın üzünə sirkə turşusu tökənlər tutuldu

**Bakıda 23 yaşlı oğlanın üzünə sirkə turşusu tökülüb. Bakı Şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində, dekabrın 1-də İ.Dadaşov küçəsində 1992-ci il təvəllüdlü Rafiq Əliyevin üz nahiyəsinə sirkə turşusu tökməkdə şübhəli bilinən Bakı şəhər sakinləri - 1990-cı il təvəllüdlü Mirzə Məmmədov və 1988-ci il təvəllüdlü Elnur Həşimov saxlanılıb.**



# Bakıda satıcı qız bıçaqlanıb

**Bakıda bıçaqlanma hadisəsi baş verib. APA-nın məlumatına görə, hadisə Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yerləşən marketlərdən birində qeydə alınıb. Orada satıcı işləyən, 1980-cı il təvəllüdlü Pərvanə Qurbanova bıçaq xəsarətləri ilə xəstəxanaya yerləşdirilib. Həyata keçirilən tədbirlər nəticəsində hadisəni törədən, 1982-ci il təvəllüdlü Fariz Məmmədov saxlanılıb. Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.**

# Güclü külək əsəcək, bəzi yerlərdə qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti hava şəraitinin kəskin dəyişəcəyi barədə xəbərdarlıq edib. Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, bir neçə gün davam edən mülayim hava şəraitindən sonra dekabrın 3-dən başlayaraq Bakıda və Abşeron yarımadasında hava şəraitinin kəskin dəyişəcəyi, dekabrın 6-dək qeyri-sabit keçəcəyi, arabir yağıntılı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir.**

Dekabrın 4-də gecə və səhər yarımadanın bəzi yerlərində yağışın sulu qara keçəcəyi ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-10 dərəcə enəcək.

Azərbaycanın rayonlarında dekabrın 3-dən başlayaraq dekabrın 6-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, dağlıq rayonlarda sulu qara, qara keçəcəyi gözlənilir.

Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-6 dərəcə enəcək. Çaylarda sululuğun artacağı ehtimal olunur.

Tibbi-meteoroloji proqnoza əsasən, dekabrın 3-4-də Abşeron yarımadasında hava şəraitinin kəskin dəyişməsi, güclü xəzri küləyinin əsməsi və temperaturun ötən günlərlə müqayisədə xeyli aşağı enməsi meteohəssas insanlar üçün əlverişsizdir.

**Elan**

**Cəfərov Arif Bəxtiyar oğlunun adına verilmiş bağ sənəti itidiyi üçün etibarsız sayılır.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

# Göyçayda mənzilə silahlı basqın edənlərdən ikisi tutulub

**Göyçay rayonunda soyğunçuluq məqsədilə mənzilə basqın edən maskalı şəxslərdən ikisi tutulub. APA-nın yerli bürosunun xəbərinə görə, ötən gün dörd nəfər maskalı şəxs əllərində tapança və bıçaqla şəhər sakini, 1952-ci il təvəllüdlü Hacıyev Fərzəli Məhəmməd oğlunun yaşadığı evə basqın edib.**

Naməlum şəxslər Fərzəli Hacıyevi, onun həyat yoldaşı, 1958-ci il təvəllüdlü Rəxşəndə Hacıyevanı və oğlu, 1995-ci il təvəllüdlü Fərhad Hacıyevi döyərək müxtəlif dərəcəli bədən xəsarətləri yetiriblər. Hüquq-mühafizə orqanlarının əməkdaşları dərhal hadisə yerinə baxış keçiriblər və maskalı şəxslərin tutularaq istintaqa təhvil verilməsi üçün əməliyyat-axtarış tədbirlərinə başlayıblar. Polis əməkdaşları hadisəni törədən 4 nəfərdən ikisini - Bakı sakini, 1989-cu il təvəllüdlü İsmayılov Orxan İsrail oğlu və İmişli şəhər sakini, 1990-cı il təvəllüdlü Mehdiyev Səxavət Bakir oğlunu ötən gecə Bakı şəhərində saxlayaraq, Göyçaya gətiriblər. Hazırda istintaq tədbirləri davam edir və digər iki şəxsin tapılması üçün işlər görülür.

Fərzalı Hacıyevin uzun müddətdir, rayonda dəri alveri ilə məşğul olduğu bildirilir.

Faktla bağlı Göyçay Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

# Ağcabədi sakini yeznəsini bıçaqladı

**Ağcabədi rayonunda bıçaqlanma hadisəsi qeydə alınıb. Ağcabədi Mərkəzi Rayon Xəstəxanasından APA-nın Qarabağ bürosuna verilən xəbərə görə, Quliyev Anotoli Malik oğlu iki bıçaq yarası ilə xəstəxanaya gətirilib. Onun ağ ciyərinin zədələndiyi bildirilir. Kəhrizli kənd sakini, 1970-ci il təvəllüdlü A. Quliyevin üzərində cərrahiyyə əməliyyatı aparılıb, vəziyyəti orta-ağırdır.**

Ağcabədi Rayon Polis Şöbəsindən APA-ya verilən xəbərə A. Quliyevi həyat yoldaşının qardaşı, 1985-ci il təvəllüdlü Allahverdiyev Mais Hüseynxan oğlu bıçaqlayıb. Ailə münaqişəsi zəminində yeznəsini bıçaqlayan qayın hadisə yerindən qaçıb. Hazırda polis onu axtarır.

# Paytaxtda vergi müfəttişi döyüldü

**Paytaxtda dövlət rəsmisi mühafizə xidmətinin əməkdaşı tərəfindən döyülüb. "Qafqazinfo"nun verdiyi xəbərə görə, hadisə Nizami rayonu, Ə.Vəliyev küçəsində baş verib. Vergilər Nazirliyi Bakı Şəhər Departamentinin müfəttişi, 1964-cü il təvəllüdlü Ramiz Babayev bir neçə gün öncə ərazi üzrə səyyar vergi yoxlamaları apararkən döyülüb.**

R.Babayev "Class" MMC-yə məxsus sexdə vergi yoxlaması aparmaq istəyərkən şirkətin mühafizəçisi, Bakı sakini, 1965-ci il təvəllüdlü Emin Allahverdiyev tərəfindən döyülüb. Faktla bağlı araşdırma aparılır.

**Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda**

* Arı südü
* Mumiya
* Möhtəşəm ağ bal
* İssık-Kul balı
* Esparset balı
* Çayek balı
* Şan balı
* Karkıra balı və s.

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119

**Tel:** (012) 491-23-82; (051) 922-15-71

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**XVIII-XIX** **əsrlərdə indiki Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü olub. Hazırda ölkənin ümumi meşə fondunun ərazisi isə 1 milyon 213 min 700 hektardır. Bunun da 1 milyon 21 min hektarı meşə ilə örtülü sahələrdir. Respublikanın meşə fondu torpaqları ölkə ərazisinin 14 faizini, meşə ilə örtülü sahələr isə 11,8 faizini təşkil edir. 261 min hektar meşə sahəsi Ermənistan tərəfindən işğal edilib. Ən məhsuldar meşələr məhz işğal altında olan meşələrdir.**







# Nəfəsimizi kəsənlər...

## Meşələrin məhv olmaması üçün nə edirik, nələri etməliyik?

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Meşələrin İnkişafı Departamentinin sektor müdiri Sadiq Salmanovla söhbətimizdə məlumat verib ki, 2001-ci ildə bu nazirlik yaradılandan indiyə qədər prioritet istiqaməti Azərbaycanda meşələrin bərpası və artırılması, eyni zamanda meşələrin qorunub mühafizə olunmasıdır. 2001-ci ilə qədər Azərbaycanda meşə ilə örtülülük faizi 11,4 faiz olub. Son 15 ildə aparılan meşə bərpa tədbirləri nəticəsində meşə örtüyü 1,4 faiz artaraq 11,8 faizə çatıb. 2001-ci ilə kimi meşə bərpa tədbirləri hər il 4500 hektarda aparıldığı halda, nazirlik yaradılandan sonra bu rəqəm 2,5 dəfə artırılıb. Hər il 11 min hektara yaxın ərazidə meşə bərpa tədbirləri həyata keçirilir. 2015-ci ilin 9 ayı ərzində 1155 hektar meşə əkini və səpini aparılıb. Bunun nəticəsində 2 milyon 118 min ədəd ağac əkilib. Əkilən ağacların orta bitiş faizi 70-90 faiz arasındadır.

**Nazirlik rəsmisi bu rəqəmin normal olduğunu bildirdi. Onun sözlərinə görə, əgər əkilmiş ağacların 25 faizə qədəri sağ qalırsa, bu, ölü əkinlər sayılır. 25-50 faiz orta, 50-70 yaxşı, 70-dən yuxarı əla bitiş faizidir. Bitiş faizinin yüksək olmasına mütəmadi nəzarət olunur:** "Respublika üzrə əkilən ağacların ən aşağı orta bitiş faizi 70 faizdir. Elə çətin bitmə şəraiti olan regionlarımız var ki, orada əkilən ağacların quruma halları müşahidə edilir. Əkilən ağacların heç də yüz faizi bitə bilməz. Bunun çox səbəbi ola bilər. Ağac əkilən zaman əzilə bilər, ağacda hər hansı xəstəlik ola bilər və yaxud da torpaqda problem ola bilər. Nazirimizin bizim qarşımıza qoyduğu vəzifə budur ki, əkilən ağacların bitmə faizi 90-95 faizdən aşağı düşməsin. Dünya standartlarına görə, arid zonada - yağan yağışların buxarlanmalardan çox olduğu zonalarda 65-70 faiz bitmə norma sayılır. Biz isə çalışırıq ki, hər 100 ağacdan 95-i bitsin. Xüsusən Bakıdakı "beton yol" adlandırılan ərazidə, Xəzər rayonundan aeroporta gedən yolun nazirliyimizə aid hissəsində, Bayıl yamacında biz buna nail ola bilirik. Pirəküşkül yolunda suvarma sistemi təşkil edilib. Bizim birinci layihəmiz 2008-ci ildə olub. Atbulaq kəndindən Hacıqabul kəndinə qədər 30 kilometr məsafədə yolun sağ və sol tərəfi yaşıllaşdırılıb. O meşələrin salınması həm bizim zəhmətimiz, həm də damcılı suvarma sisteminin qurulması hesabına olub".

Azərbaycanda meşələrin 85 faizi dağlıq ərazidə, 15 faizi düzən ərazilərdə yerləşir. Aran rayonlarında meşəlik faizi cəmi 0,5-2 faiz olduğu üçün daha çox meşə bərpa tədbirləri az meşəli bölgələrdə həyata keçirilir.

Meşə sərvətləri heç bir digər təbii sərvətlərə xas olmayan çoxsahəli funksiyaları yerinə yetirir. Meşələr yeganə təbiət kompleksi hesab olunur ki, onlar su, hava və torpaq kimi biosferin çox vacib olan komponentlərinin

### İlin 9 ayında 2 milyon 118 min ağac əkilib; kəsilənlərin sayı...

sabitləşdirilməsinə şərait yaradır. Meşə örtüyü ekoloji tarazlığı saxlayan əsas təbii sərvətdir. İnsanlar meşələrə münasibətdə bu faktoru nəzərə almalıdırlar.

Qeyd edək ki, ölkə prezidenti dəfələrlə ekologiya ilə bağlı sərəncamlar imzalayıb. Dövlət başçısının meşələrin artımı, Bakı və ətraf ərazilərin yaşıllaşdırılması ilə bağlı xüsusi sərəncamı olub. Prezident İlham Əliyev 2010-cu ili ekologiya ili elan etmişdi. Azərbaycanda həmin il yaşıllaşdırma və meşəbərpa sahəsində sıçrayış olub. Prezident rayonların icra hakimiyyətlərinə də göstəriş verib ki, yaşıllıq zolaqlarının salınması işində aktiv iştirakçı olsunlar.

Heydər Əliyev Fondu da yaşıllıq və meşə salınması işində aktiv iştirak edir, hər il bu istiqamətdə layihələr həyata keçirir.

**S.Salmanov əksər rayonların icra hakimiyyəti orqanlarının meşələrin bərpası işində, meşələrin və yaşıllıqların mühafizə olunması işində yaxından iştirak etdiyini, lakin bəzi rayonların bu işə elə də ciddi yanaşmadığını deyir:** "Əksər rayonların icra hakimiyyəti strukturları son beş ildə daha aktiv şəkildə ağacəkmə və yaşıllaşdırma işlərinə qoşulurlar. Bəzi rayonlar isə nazirliyə bu işdə müəyyən kömək edirlər, amma lazımi səviyyədə yox".

Meşə fondunun mühafizəsinin təbliği və yeni yaşıllıqların salınmasında ictimaiyyətin, cəmiyyətin isə rolu qaneedici sayıla bilməz. Əhalinin, insanların meşələrə, yaşıllıqlara münasibəti, davranışı lazımi səviyyədə deyil. Bu, əsas problemdir. ETSN hər il yazda və payızda yaşıllıq ayları keçirir. Rayonlara müraciət edilir ki, birlikdə yaşıllıq ayı keçirilsin, insanlar kütləvi şəkildə bu işə qoşulsunlar. Lakin təəssüf ki, bu çağırışlara kifayət qədər qoşulanlar olmur. İctimaiyyətin meşələrə, yaşıllıqlara münasibəti istənilən səviyyədə deyil.

Əhalinin meşələrə yalnız dolanışıq və yanacaq mənbəyi kimi yanaşmasının bir neçə bölgənin timsalında acı nəticəsini göstərə bilərik. Ümumi sahəsi 12 min hektar olan Göygöl meşələrində aparılan qırğınlar nəticəsində ərazinin təxminən 40 faizi məhv edilib. Vaxtilə bölgənin əhəmiyyətli turizm məkanlarından olan Hacıkənddə qəsəbəətrafı meşələrin 70 faizi qırılıb. Bunun acı nəticələrini ilk hiss edənlər də istilik və dolanışıq məqsədi ilə bu qırğınlarda iştirak edən qəsəbə sakinləri özləri olublar. Sel, torpaq sürüşmələri son illər burada adi hala çevrilib.

Gəncə Regional Elmi Mərkəzinin əməkdaşlarının apardıqları araşdırmaların nəticəsi də göstərir ki, bölgədə anormal hava şəraitinin yaranmasına başlıca səbəb son dövrlər regionda meşələrin kəskin qırılmasıdır.

Ağsu rayonunun da bir neçə dağ kəndlərində olduq və dağ kəndlərindəki meşələr də illərdir ağac soyqırımının aparıldığını öyrəndik. Vaxtılə füsunkarlığı ilə məşhur olan Nuran meşəsinin əvvəlki vaxtlarından əsər-əlamət qalmayıb. Ətraf kəndlərdə mavi yanacağın yoxluğu üzündən əhalinin yeganə yanacaq mənbəyi Nuran meşələri olub. Hinqar kəndi ərazisindəki meşələr haqda isə artıq sakinlər keçmiş zamanda danışır.

**Kənd sakini Feyruz Rəhimov bizimlə söhbətində bildirdi ki, 20 il əvvəl Hinqar meşəsi nəhəng ağaclarının sıxlığı ilə seçilirmiş. Sovet hökuməti dağıldıqdan sonra kəndə qaz verilişi dayanıb və borular sıradan çıxıb:** «Əhali illərdir yanacaq kimi meşələrə üz tutur. Özünüz də görürsünüz ki, artıq Hinqar meşəsinin yerində tikanlı kolluqlar qalıb. Meşə massivinin məhv olması ərazidə torpaq sürüşmələrinə, su qıtlığına, bulaqların qurumasına, faunanın sıradan çıxmasına gətirib çıxarıb. Gördüyünüz bu yarğanlar əvvəllər yox idi. Ərazidə iri ağaclar tamamilə qırıldıqdan sonra son illərdə torpaq sürüşmələri, yarılmaları nəticəsində yarğanlar əmələ gəlib. Heyvanlarımız bu yarğanlara düşüb tələf olur".

**Feyruz Rəhimov belə bir acınacaqlı vəziyyət barədə şəxsən ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırova məlumat verdiklərini də deyir:** "Bu ilin iyul ayında nazir Hüseyn Bağırov Şamaxı rayonunda Şamaxı və Axsu rayon sakinlərinin qəbulunu keçirirdi. Mən və digər kənd sakinləri nazirin qəbulunda olduq. Nazir də dedi ki, kənddə mavi yanacaq olmamasının meşələrə vurduğu ziyandan xəbərdardır. Bizə vəd verdi ki, kəndin qazlaşdırılması üçün müvafiq orqanlara müraciət edəcək. Nazir tövsiyə etdi ki, nə qədər ki, kəndlərimizə qaz çəkilməyib, yanacaq kimi odundan daha ucuz başa gələn kerosindən istifadə edək. Bu, həm cibimizə, həm də meşələrin qorunmasına müsbət təsir edər".

Onu da qeyd edək ki, qanunsuz ağackəsmə hallarına qarşı tədbirlər cərimələr və cinayət məsuliyyətinə cəlb etmədir. Cərimənin məbləği 400 manatı ötürsə, meşə mühafizəsini həyata keçirən orqan cinayət işi açılmaq üçün hüquq-mühafizə orqanına müraciət edir.

Dünyada qəbul olunmuş qaydaya görə, cərimə kəsilən ağacın sayına görə yox, həcmə görə müəyyən edilir. Ağacın cinsindən, diametrindən və hansı kateqoriyaya aid olmasından asılı olaraq cərimə müəyyən edilir. Məsələn, 1 kubmetr odunun cəriməsi 5 manat 18 qəpikdir. Amma içlik üçün kəsilmiş ağacların 1 kubmetrinin qiyməti yüksəkdir. Məsələn, kəsilmiş ağac qoz ağacıdırsa, 1 kubmetr üçün cərimə 178 manat, palıddırsa 80 manatdır.

ETSN daha bir cərimə sistemi də tətbiq edir. Bir ədəd ağac kəsməyə görə inzibati xəta olaraq 800 manat cərimə tətbiq olunur.

Hər kəs ağac kəsərkən ilk növbədə təbiəti məhv etməklə özünə, gələcək nəsillərə zərbə vurduğunu nəzərə almalı, ikincisi isə yüksək məbləğdə cərimələrə, hətta cinayət məsuliyyətinə cəlb olunacağını göz önünə almalıdır.

Meşələrin, yaşıllıqların məhv edilməsi insanların özlərinə etdiyi ən böyük pisliklərdəndir. Çünki təbiətin qisası daha amansız olur. Meşələrin qurumasına da insan amilinin təsiri böyükdür. Meşələrdəki su mənbələrinin borulara vurularaq istirahət mərkəzlərinə, digər təsərrüfat yerlərinə ötürülməsi quruma prosesinə gətirib çıxarır. Alternativ yanacaq növlərinin çatışmazlığı, kəndlərdə qazlaşdırmanın səviyyəsinin aşağı olması faktoru da meşələrdə özbaşına qırıntının artmasına, qanunsuz mal-qara otarılması isə təbii bərpa prosesinin pozulmasına səbəb olur.

Ekspertlər bu fikirdədirlər ki, əhali meşələrə həyat mənbəyi kimi yox, dolanışıq mənbəyi kimi baxdıqca bu sahədə problemlərin tam həlli mümkün olmayacaq. Hər kəs bilməlidir ki, meşələr həyat mənbəyidir. Ona dolanışıq mənbəyi kimi baxmaq olmaz. Meşə örtüyünün, yaşıllıqların sıradan çıxması yağıntılar zamanı torpaq sürüşmələrinə, daşqınların dəhşətli fəsadlar törətməsinə səbəb olur.

Meşələrin, yaşıllıqların qorunması təkcə bir nazirliyin, dövlət orqanının işi olmamalıdır. Cəmiyyət, hər bir fərd bu məsələdə özündə məsuliyyət hiss etməli, hər kəs özünü təbiətin mühafizəçisi qismində görməlidir. Nəzərə almaq lazımdır ki, Azərbaycan meşəlilik faizi çox aşağı olan ölkələrdəndir. Dünyada qəbul edilmiş normadan 2,5 dəfə azdır. Normaya görə, Azərbaycan ərazisinin ən azı 22 faizi meşə örtüyü olmalıdır.

Unutmaq lazım deyil ki, ekoloji tarazlıq təkcə hansısa dövlət qurumuna yox, hər birimizə, o cümlədən gələcək nəsillərə lazımdır. Dünyada müşahidə olunan qlobal iqlim dəyişikliklərindən mümkün qədər az zərər görməyin yeganə yolu yaşadığımız ərazidə, ölkədə təbiətə, xüsusilə meşə örtüyünə zərər vurmamaq, qayğı göstərməkdir. Təbiəti qorumalıyıq ki, təbiət də bizi qorusun.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün".*

**❑ Etibar SEYİDAĞA (AĞAYEV)**

YENİ MÜSAVAT

Son səhifə

N 269 (6297) 3 dekabr 2015



## Facebookun rəhbəri 45 milyardlıq sərvətini bağışladı

**Facebookun rəhbəri olan Mark Zukerberqin qızı dünyaya gəlib. Zukerberqin uşaq və ailəsi ilə birlikdə paylaşdığı şəkil 2 saat ərzində 2 milyon nəfər facebook istifadəçisi tərəfindən bəyənilib.**

Qızının dünyaya gəlməsindən sonra onun şəklini öz profilində paylaşan gənc milyoner ilk dəfə həyat yoldaşı ilə birlikdə çəkilmiş şəklini də paylaşmış olub. Mark Zukerberq həyat yoldaşı Pristsilla Çanla birlikdə xeyriyyə məqsədilə şirkət üzrə səhmlərinin 99 faizini ianə edəcək. Bu barədə Zukerberq özü facebookdakı hesabında məlumat paylaşıb. Məlumata görə, Zukerberq Maks adlı qızının dünyaya gəlməsi münasibətilə mülkiyyətinin böyük hissəsini "dünyanı daha yaxşı" etmək üçün "Çan-Zukerberq Təşəbbüsü" adlı xeyriyyə fonduna hədiyyə edib. Facebook təsisçisinin dediyinə görə, aktivlərin ümumi məbləği 45 milyard dollara yaxındır.

O bildirib ki, "Çan Zukerberq Təşəbbüsü"nün əsas hədəfi, insan potensialının tərəqqisi və bütün uşaqlar üçün bərabərliyin bərqərar olmasıdır. Əsas maliyyə vəsaiti, təlim-tədris, müalicə, insanlar arasında əlaqələrin inkişafı və daha güclü icmaların qurulmasına yönələcək. Zukerberq övladının doğulması ilə bağlı 2 aylıq məzuniyyətə çıxdığını bildirib.

# Qatığın faydaları

**Qatıq səhərdən axşama qədər günün hər saatında yeyilə biləcək möcüzəvi qidadır. Qatıq suyu ilə birlikdə yeyilməlidir. Süzülmüş qatıqda "B" vitamini qalmır. Çünki vitaminlər həmişə qatığın suyunda olur.**



Səhər nahardan sonra yeyilən qatıq həzmi asanlaşdırıb, bağırsaqların fəaliyyətinə kömək edir. Ancaq mədəsi çox həssas olanlara, onikibarmaq bağırsaq xorası olanlara pis təsir edir. Qatıq xəstələr və zəif olanlar üçün süddən daha yüngül həzmi asan qidalardandır . Eyni zamanda bağırsaqlarda olan təhlükəli və zərərli mikrobların çoxalmalarına və hətta yaşamalarına mane olur. Vərəmli xəstələrə antibiotik təsiri göstərir. Qatıq eyni zamanda yoluxucu xəstəliklərin müalicəsində də olduqca əhəmiyyətə malikdir. Bundan başqa, üzə çəkilərsə dərini canlandırar. Rahat bir yuxu üçün də qatıq yeyə bilərsiniz.

# Kişilər qadınlara necə təsir edə bilər?

**İltifatlar hər zaman qadınların qəlbinin daha sürətli döyünməsinə səbəb olur. Sevgilisinin nə qədər gözəl biri olduğunu dostları ilə söhbət edərkən izah edən və sanki sevgilisini tərifləndiyinin fərqində deyilmiş kimi davranan kişilər qadınları bu davranışlarıyla göylərə qaldırır. Əgər bir qadına təsir etmək və onun qürurunu oxşamaq istəyirsinizsə, dostlarınızın yanında ona iltifat edə bilərsiniz. Kişilər sevdikləri qadının xoşlandığı şeyləri bilir və bunlardan bəhs edirsə, bu onunla həqiqətən maraqlandığı mənasını verər. Qadınlar özlərini tanıyan və nə istədiklərini bilən kişilərdən çox təsirlənər. Hər qadının xəyalı hansı yeməkləri sevdiyini, haradan alış-veriş etdiyini və həftə sonu harada gəzmək istədiyini bilən və özünə soruşmadan hərəkət edə bilən bir kişidir. Bir kişi market alış-verişindən döndüyündə və "Bunu sən sevdiyin üçün aldım" dediyində, qarşısındakı qadının ürəyini qazanmış olur. Qadınlar kişilər onların fərdi məsələləri ilə maraqlandıqlarında çox xoşbəxt olur. Hər gördüyü şeydə özünü xatırlayan bir sevgilisinin olması qadınlar üçün böyük bir xoşbəxtlik qaynağıdır.**





## Çinlilər insanın kloununu yaradır

**Çindəki dünyanın ən böyük kloun fabrikinin sahibi mübahisələrə səbəb olacaq açıqlamalar yayıb. Fabrikin sahibi olan Xiaçoun "insan klounlayacaq texnologiyaya sahibik" deyə açıqlama yayıb. Fabrikin digər işçiləri də Fransanın AFP xəbər agentliyinə verdikləri məlumatda deyilənləri təsdiqləyiblər. Yarış atlarını, ev heyvanlarını və polis itlərini klounlaşdıran şirkətin sahibi "inəklər sadəcə başlanğıcdı. İcazə verilərsə meymun və insanı klounlaya bilərik" deyə bildirib. Əxlaqi problemlərə görə insan klounlamağın müzakirələrə səbəb olacağını deyən Xiçaoun texnologiyanın çox inkişaf etdiyini və insanı klounlamağın əlçatmaz olmadığını düşünür. Onun sözlərinə görə, cəmiyyət insanın klounlanmasını qəribə bir hadisə kimi dəyərləndirməməlidir.**




**QOÇ** - Göy qübbəsi məsləhət görür ki, nahara qədər enerjinizi dağıtmayasınız. Çünki sonrakı müddətdə bir neçə istiqamətdə fəallaşacağınız gözlənilir. Axşam riskli görüşlərə razılıq verməyin.

**BUĞA** - Maraqlı və zövqlü bir gün yaşayacaqsınız. Sizi dəstəkləyənlər də çoxalacaq. Xeyirxah əməllərinizin sayını artırın. Təxminən saat 16-dan etibarən fəaliyyətinizdə dönüş olmalıdır.

**ƏKİZLƏR** - Qarşınızda bir qədər gərgin gün durduğundan bacardığınız qədər təmkin nümayiş etdirməlisiniz. Ailədaxili problemlərinizin həllinə çalışın, onlarla birlikdə əylənməyə çalışın.

**XƏRÇƏNG** - Günün ilk yarısında bir qədər pərişanlığınız gözlənilir. İnsanlara münasibətinizi dəyişin. İşlə bağlı gözləntiləriniz müsbət nəticə verməlidir. Digər yeniliklər də gözlənilir.

**ŞİR** - İlk növbədə şəxsi büdcənizin durumunu dirçəltməyə çalışın. Çünki indiki məqamda problemlərinizin az qala hamısı pula bağlıdır. Əgər planlaşdırmısınızsa, səfərə çıxa bilərsiniz.

**QIZ** - Dünəndən mənfi yüklü Ay bürcünüzə daxil olduğu üçün nəzərdə tutduğunuz işlərin həyata keçməsində əngəl ola bilər. Qətiyyətinizi azaltmayın. Bu gün maddi durumunuzda irəliləyiş olsa da, səhhətinizi də qorumalısınız.

**TƏRƏZİ** - Maliyyə çətinliyiniz olsa da, bu tarixi sıxıntı için də başa vurmayacaqsınız. Əksinə, qarşınıza çıxan insanlar sizə böyük ümidlər verəcək. Dəyərli məsləhətləri eşitməyə hazır olun.

**ƏQRƏB** - Qarşınızda xoş bir gün durub. Qarşılıqlı münasibətlərdə mövcud olan kəm-kəsirlər xeyli yumşalacaq. Yüksək çinli adamlarla görüşləriniz perspektivlərinizi reallığa yaxınlaşdıracaq.

**OXATAN** - Səhhətinizin qayğısına qalsanız, gün ərzində digər xoşagəlməzliklərlə rastlaşmayacaqsınız. Xüsusən də nəqliyyatda ehtiyatlı olmalısınız. Tanımadığınız adamlarla təmasa girməyin.

**OĞLAQ** - İşlə bağlı aktivliyinizi artırın. Aldığınız hər bir tapşırığı ləyaqətlə icra edin. İnsanlara elə münasibət göstərin ki, qoy sizə güvənənlər daha da etibar etsin. Əks cinslərə qarşı kobud olmayın.

**SUTÖKƏN** - Yalnız münasibətləri düzəltmək baxımından uğurlu gündür. Bu səbəbdən fəaliyyətə çox da aludə olmayın. Vəziyyəti dirçəltmək üçün ilk növbədə ailədən başlayın. Onların könlünü alın.

**BALIQLAR** - Ulduzlar məsləhət görür ki, gün ərzində özünüzü çox yormayasınız. Vaxt tapıb qohum-əqrəbanıza da baş çəkin. Günün ikinci yarısında işgüzar sövdələşmələrə başlamaq uğurlu nəticə verəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Vi-fi-yə allergiyası olan qız öldü



**Kabelsiz internetə girmə vasitəsi olan vi-fi-yə allergiyası olan qız intihar edərək hər kəsi şoka salıb. İngiltərədə yaşayan Jennt Fry adlı gənc qız vi-fiyə allergiyası olduğu üçün şiddətli baş ağrılarından əziyyət çəkirmiş. Şüalara qarşı olduqca həssas olan qız baş ağrılarından, yorğunluqdan və böyrəklə bağlı problemlərdən əziyyət çəksə də, heç vaxt həkimə müraciət etməyib. Həyatının hər gün bir az daha çətinləşdiyini hiss edən 15 yaşlı qız depressiyaya düşüb və sonunda intihar edib.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.